www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18 avqust 2016-cı il Cümə axşamı № 181 (6502) Qiyməti 60 qəpik

Xəbər

## Xəzər yenə iki can aldı

yazısı səh.13-də

Gündəm

### ABŞ-la referenduma görə gərginlik



Dövlət Departamentinin və Konqresin Helsinki Komissiyasının bəyanatlarına iqtidar düşərgəsindən sərt cavab gəldi

yazısı səh.8-də

### Qafqaz Universitetinin 50 müəllimi işdən çıxarıldı

yazısı səh.4-də

*Hərbi ekspert:*

### "Qarabağ məsələsi çözülənədək Azərbaycan bahalı silahlar alacaq..."

yazısı səh.11-də

### Bakıda və Gəncədə ailə dramı: arvadlarını öldürdülər

yazısı səh.14-də

### Nardarandakı ən məşhur ziyarətgah bağlanır, yoxsa...

yazısı səh.13-də

### Azərbaycan innovasiya indeksinə görə Mozambikdən niyə geri qalır?

yazısı səh.15-də

### Daha iki bank müflis elan olundu

yazısı səh.10-da

### Xədicə İsmayılla bağlı daha bir məhkəmə başladı

yazısı səh.3-də

### Xəzər "qanlı göl"ə çevrilə bilər-təhlükə

yazısı səh.9-da

### Böyük özəlləşdirmə oliqarxlar üçün fürsətdir

yazısı səh.12-də

### Müsavatın sədr müavini partiyadan getdi

yazısı səh.3-də

## "Moskva Bakıya öz hərbi planını təqdim edib"

# RUS NƏŞRİNDƏN SENSASİON İDDİA - KREML BAKIDAN CAVAB GÖZLƏYİR

Azərbaycanla Rusiya arasında intensivləşən hərbi müzakirələrin detalları açılır; Bakı-Moskva marşrutu üzrə yüksək səviyyəli qarşılıqlı səfərlərin daha bir pərdəarxası...




yazısı səh.6-da

## "Mətanət A" şirkətinin adı FETÖ araşdırmalarına qarışıb

Azərbaycanın tanınmış brendinin Fətullah Gülən şəbəkəsi ilə əlaqələrinin olduğuna dair iddialar yayılıb; şirkətin rəhbərliyinin istintaqa çağırıldığı deyilir

yazısı səh.12-də



*İlham Rəhimov:*

### "5+2, sonra status" formulu bizim üçün məqbul deyil"

yazısı səh.5-də




*Həbsdəki bankir:*

### "Nazir Samir Şərifov burada oturmalıdır"

yazısı səh.10-da



### Nazir Azad Rəhimova ağır ittihamlar-YAP araya girdi

yazısı səh.7-də

# 18 avqust 2016



# İsrail Türkiyəyə 20 milyon dollar təzminat ödəyəcək

**Türkiyə-İsrail münasibətlərinin normallaşması ilə bağlı razılaşma sənədi ratifikasiya üçün parlamentin gündəliyinə daxil edilib. "Habertürk" xəbər verir ki, razılaşmaya əsasən, İsrail Türkiyəyə 25 gün ərzində 20 milyon dollar məbləğində təzminat ödəyəcək.**

Anlaşmada İsrail hərbçiləri hüquq və cəza məsuliyyətindən azad ediləcək. Eyni zamanda İsrail Fələstinə humanitar yardımın göndərilməsi ilə bağlı tətbiq etdiyi embarqonu yumşaldacaq.

Qeyd edək ki, Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu sənəd layihəsini Böyük Millət Məclisinin sədrinə təqdim etdiklərini, onun həmin razılaşmanı parlamentin müzakirəsinə çıxaracağını söyləmişdi.

Bu il iyunun 29-da İsrail hökuməti Türkiyə ilə normallaşma razılaşmasını təsdiqləyib. İsrail dövləti baş verən hadisə ilə bağlı Türkiyədən üzr istəyib.

Xatırladaq ki, iki dövlət arasında münasibətlər 2010-cu il mayın 31-də kəsilib. O zaman Fələstinin Qəzza bölgəsinə humanitar yardım aparan Türkiyənin "Mavi Mərmərə" gəmisinə İsrail hərbçiləri basqın etmişdi. Nəticədə Türkiyənin 9 vətəndaşı öldürülmüşdü.

# BQXK Naxçıvana keçərkən tutulan erməniyə baş çəkdi

**Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) əməkdaşları Naxçıvanda saxlanılan Ermənistan vətəndaşı Agetsyan Henrik Sayerbekoviçə baş çəkiblər. BQXK-nın Azərbaycan nümayəndəliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova virtualaz.org-a bildirib ki, saxlanılan şəxsin ailəsinə məlumat göndərməsinə imkan yaradılıb: "Eyni zamanda ailəsindən ona məlumat çatdırılıb".**

Qeyd edək ki, erməni əsilli, 1954-cü il təvəllüdlü Agetsyan Henrik Sayerbekoviç avqustun 7-də Sədərək istiqamətindən Naxçıvan Muxtar Respublikasına keçərkən Azərbaycan hərbçiləri tərəfindən saxlanılıb.

# Kommersiya banklarının rəhbərləri bir arada

**Dünən Maliyyə Bazarlarına Nəzarət Palatası (MBNP) Direktorlar Şurasının sədri Rüfət Aslanlının Azərbaycanda fəaliyyət göstərən kommersiya banklarının rəhbər şəxsləri ilə görüşü keçirilib.**

"Report" xəbər verir ki, görüşdə bank sektorundakı hazırkı vəziyyət müzakirə edilib.

Azərbaycan Banklar Assosiasiyasının (ABA) təşəbbüsü ilə baş tutan toplantı mətbuat üçün qapalı olub. Müzakirələrin detalları ilə bağlı MBNP-nin açıqlama yayacağı gözlənilir.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərində də abunə qəbul olunur.

# Rioda şok həbs-Patrik Hikki bilet maxinasiyasında suçlanır

**Bakı Avropa Oyunlarının təşəbbüskarı, Avropa Olimpiya Komitəsinin, eyni zamanda İrlandiya Olimpiya Komitəsinin prezidenti Patrik Hikki Braziliyada həbs olunub.**

Virtualaz.org beynəlxalq mediaya istinadən xəbər verir ki, Patrik Hikki Rio Oyunlarının biletlərinin alverində əli olmaqda ittiham olunaraq həbs edilib. Onun Rio-de-Janeyranın Barra-daTjuca rayonunda həbs edildiyi xəbər verilir.



Məlumata görə, Patrik Hikkinin həbsi bilet alverinə görə avqustun 5-də həbs edilmiş irlandiyalı biznesmen, Britaniyanın THG şirkətinin direktoru Kevin Mallonun ifadəsi əsasında baş verib. Mallon istintaqa verdiyi ifadədə bilet alveri sxemini açıb və cənab Hikkinin də bu sxemin tərkib hissəsi olduğuna dair sübutlar var. 71 yaşlı Patrik Hikki biletləri onları çox baha qiymətə satan üçüncü tərəfə ötürməkdə şübhəli bilinir. Bundan bir neçə gün öncə Rioda bir kişi 800 qeyri-qanuni biletlə yaxalanıb.

Patrik Hikki Beynəlxalq Olimpiya Komitəsinin nümayəndə heyətinin qaldığı "Windsor Marapendi" hotelində həbs olunub. Həbs olunduqdan sonra o, ifadəsi alınmaq üçün yaxınlıqdakı polis bölməsinə piyada aparılıb. Polisdəki mənbə bildirib ki, onlar həbs üçün hotelə gələndə cənab Hikki qaçmağa çalışıb. Lakin polislər 71 yaşlı Hikkini yaxalayıblar və əllərini qandallayıblar.

Hikki polisə aparılandan sonra səhhəti pisləşib, onu polis bölməsindən Rionun Barra rayonundakı Samaritano klinikasına aparıblar. İrlandiya Olimpiya Komitəsi öz saytında bildirib ki, Patrik Hikkinin həbsi barədə məlumatlıdır, lakin vəziyyət tam aydınlaşana qədər şərh verməyəcək.

İrlandiya mətbuatının xəbərlərinə görə, polislər Patrik Hikkinin qaldığı otağa basqın edərkən o, balkondan qonşu otağa keçib və oradan qaçmağa çalışıb. Qonşu otaqda isə bundan əvvəl Hikkinin oğlu qalırmış. Patrik Hikki qaçmağa çalışarkən İrlandiya Olimpiya Komitəsinin prezidenti olduğunu təsdiqləyən vəsiqəni də nəyə görəsə qapının altına qoyub. Vəsiqəni polislər götürüb.

## Patrik Hikkinin barəsində çıxarılmış həbs orderi

**Rio-de-Janeyro polisinin dələduzluq və mütəşəkkil cinayətkarlıq departamendən "Associated Press" agentliyinə bildiriblər ki, onların apardığı təhqiqat nəticəsində cənab Hikkinin beynəlxalq bilet alveri sxemində yer aldığını göstərən sübutlar üzə çıxıb.**

Artıq Beynlxalq Olimpiya Komitəsi Patrik Hikkinin qaldığı hoteldə onun üçün ayrılmış yeri ləğv edib.



## Meteohəssas insanlar bu gün diqqətli olsun

**Avqustun 18-də Bakı və Abşeron yarımadasında hava yağmursuz olacaq. Şimal küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən APA-ya verilən məlumata görə, havanın temperaturunun yarımadada gecə 22-26, gündüz 31-36, Bakıda gecə 24-26, gündüz 33-35 dərəcə isti olacağı gözlənilir.

Atmosfer təzyiqi 756 mm civə sütunu, nisbi rütubət gecə 70-80%, gündüz 35-45% təşkil edəcək.

Abşeron çimərliklərində dəniz suyunun temperaturu-nun Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulbada 24-25, Buzovna, Mərdəkan, Şüvəlanda 25-26, Türkan, Hövsan, Sahil, Şıxda 27-28 dərəcə isti olacağı gözlənilir.



# Ombudsman DTX-nin istintaq təcridxanasında

**Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Elmira Süleymanova İşgəncələrin qarşısının alınması üzrə Milli Preventiv Mexanizm (MPM) qismində Dövlət Təhlükəsizliyi Xidmətinin Müvəqqəti saxlama yeri və istintaq təcridxanasına əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçirib. Ombudsmanın mətbuat xidmətindən APA-ya verilən məlumata görə, rəftar məsələlərinin araşdırılması ilə bağlı saxlanılan şəxslərlə təkbətək qaydada görüş keçirilib, müraciətləri dinlənilib, hər birinə hüquqi məsləhətlər verilib, qanunvericiliyin tələbləri və ombudsmanın səlahiyyətləri izah olunub.**

Qəbul edilmiş şəxslər müəssisə əməkdaşlarının onlarla rəftarından, müəssisədə saxlama şəraitindən, keyfiyyəti qida, gəzinti və tibbi xidmətdən razılıqlarını bildiriblər.

Başçəkmə zamanı saxlanılma şəraiti ilə yanaşı, qidalanma, ərzaq və tibbi preparatlarla təminat, habelə tibbi xidmətin vəziyyəti araşdırılıb, bu məqsədlə həmin müəssisənin yeməkxanası, ərzaq anbarı, tibb otağına, eləcə də kitabxanaya və idman zalına baxış keçirilmiş, müəssisədə şəraitin xeyli yaxşılaşdığı, kameraların təmir olunduğu, müasir televizor və radio ilə, həmçinin yay rejiminə keçidlə əlaqədar soyutma-havalandırma sistemi və avadanlıqları ilə təchiz olunduğu müşahidə edilib və saxlanılan şəxslər bundan razılıqlarını bildiriblər.

Yekunda müəssisə rəhbərliyi və tibbi personalla söhbətlər aparılıb, onlara müvafiq tövsiyələr verilib.

## Ərdoğan indi də İrana gedir

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan gələn həftə Tehrana səfər edəcək.**

Virtualaz.org bildirir ki, bu barədə Fars agentliyi məlumat yayıb.

Məlumatda deyilir ki, səfərdə məqsəd Suriyadakı yaraqlılarla mübarizə aparmaq üçün Rusiya-Türkiyə-İran koalisiyasının yaradılması məsələsini müzakirə etməkdir.

Xatırladaq ki, Ərdoğan Suriyada hərbi əməliyyatlara son qoyulmasının yollarını bir neçə gün əvvəl Sankt-Peterburqda Rusiya prezidenti Vladimir Putinlə də müzakirə edib.

Yeri gəlmişkən, xəbəri verən mənbə onu da bildirib ki, tezliklə üç ölkənin nümayəndələri arasında bu mövzuda danışıqlar olacaq.

## Moskva və Peterburqda döyüşlər: 7 ölü, 1 yaralı

**Rusiyanın Sankt-Peterburq və Moskva şəhərlərində Şimali Qafqazdan olan qanunsuz silahlı birləşmə üzvləri ilə yerli təhlükəsizlik qüvvələri arasında silahlı toqquşmalar baş verib. Modern.az Rusiya KİV-nə istinadən xəbər verir ki, Sankt-Peterburqda çoxmərtəbəli binalardan birində keçirilən xüsusi əməliyyat zamanı 3 silahlı şəxs öldürülüb. Bundan başqa, Moskvaya gedən əsas yollardan sayılan Şelkov şossesində post-patrul polisinin postuna silahlı hücum edilib. Silahlılar 1 polis əməkdaşını öldürüb, digərini isə yaralayıblar. Ərazidə aparılan xüsusi əməliyyat zamanı 2 silahlı şəxs öldürülüb.**

Sankt-Peterburqda əməliyyat zamanı Şimali Qafqazdan olan 4 silahlı öldürülüb. Bu barədə "Ria Novosti" məlumat yayıb.

## İran Rusiyaya heç bir hərbi baza verməyib

**İranın Məclis sədri Əli Laricani İranın Suriyadakı hədəfləri vurması üçün Rusiyaya qalıcı hərbi baza həvalə etmədiyini bildirib.**

Rusiya Suriyadakı müxalifləri vurmaq üçün İranın Həmədan hərbi hava bazasından strateji bombardman təyyarələri səfər etdiyini açıqlamışdı.

Rusiya bu bazadan qaldırdığı təyyarələrlə etdiyi bombardmanda Suriyadakı İŞİD və Fatih Əl Şam hədəflərini vurduğunu bildirmişdi.

Rusiya Müdafiə Nazirliyi avqustun 17-də «SU-34» qırıcı təyyarələrinin bombardmanı davam etdirdiyini açıqlayıb. Nazirlik, bombardman nəticəsində 150-dən artıq İŞİD terrorçusunun öldüyünü, iki qərərgahın məhv edildiyini bildirib. Modern.az xarici mətbuata istinadən xəbər verir ki, İran parlamentindəki iclasda danışan Lərcani, "İran, Rusiya və ya başqa bir ölkəyə hərbi baza həvalə etməyib" deyib və əlavə edib: "İran Konstitusiyasının 146-cı maddəsinə uyğun olaraq hər hansı bir xarici hərbi bazanın ölkədə olması qadağandır. Bir müttəfiq olaraq Rusiya ilə Suriya kimi məsələlərdə əməkdaşlıq etsək də hərbi baza verməmişik. Mətbuatda bu mövzuda çıxan xəbərləri təkzib edirik".

YENİ MÜSAVAT
N 181 (6502) 18 avqust 2016

# Müsavatın sədr müavini partiyadan getdi

## Mahir İsmayılov: "Hakimiyyətin qarşısında deməyə sözümüz qalmayıb"

**Müsavat Partiyasının qurultayının üzərindən iki ilə yaxın müddət ötsə də, qurum daxilindəki narazılıqlar səngiməк bilmir. Partiya başqanı Arif Hacılının fəaliyyətindən narazı olan fəalların istefaları davam edir.**

Son olaraq, Yasamal rayon təşkilatının sədr müavini Mahir İsmayılov istefa verib. Fəaliyyətini Müsavat başqanlığına sabiq namizəd, qurultaydan sonra qurumdan xaric olunan Qubad İbadoğlunun rəhbərlik etdiyi Azərbaycan Demokratiya və Rifah Hərəkatında davam etdirəcəyini açıqlayan M.İsmayılov "Yeni Müsavat"a partiyadan istefasının səbəblərini açıqlayıb: "1998-ci ildə Müsavata üzv olmuşam. Son qurultaydan sonra təkcə mən partiyadan çıxmamışam. Bəlkə də istefa verən 200-300-cü şəxsəm. Qərarımı indi verməmişəm. Müsavat mənasız quruma çevrilib. Hazırda fəaliyyəti sıfıra bərabərdir. Partiyaya canımı qoymuşam. Əvvəllər Müsavatı ölkədə ən güclü müxalif qurum hesab edirdim. Gəncliyimi bu partiyaya xərcləmişəm. Oradakı şəxslərin hamısının xarakterinə bələdəm. Onların məqsədlərinin nədən ibarət olduğunu bilməyən yoxdur. Qurultaydan bir ay qabaq Yasamal təşkilatının konfransı keçirildi. Orada öz təşəbbüsümlə müavin seçildim. Partiyanı çiyinlərində daşıyan şəxslərdən biri olmaq istədim. Amma sonradan qurultayda o boyda saxtakarlığın gözlərimlə şahidi oldum. Çünki sıravi üzv deyildim, partiya funksioneri idim. Müsavat qurultaydan sonra oyuncaq quruma çevrilib. Artıq orada can qoymağın mənası yoxdur. Fəaliyyət o zaman göstərmək vacib olar ki, Azərbaycanda normal, demokratik cəmiyyət uğrunda çalışaq. Kimsə düşünə bilər ki, qurultaydan iki il sonra niyə istefa vermişəm. Bu mənim çoxdankı məqsədim idi. Sadəcə, bu günlərə təsadüf etdi. Kimsə məni buna təhrik etməyib. Müsavatda məni yaxşı tanıyırlar. Konkret adamam, bu günə qədər heç kimin təsiri altında olmamışam, bundan sonra da elə olacaq. Öz şəxsi qərarımdır. Yasamal təşkilatının rəhbərliyində təmsil olunan bir neçə şəxsin istefasını bir müddət ləngitdim ki, bəlkə Müsavat rəhbərliyi düzələr, birlik yaranar. Amma onlar düzəlmək əvəzinə daha da aqressiv oldular. Qurultay axşamı dedim ki, Müsavat dağıldı, onun son möhürünü bu gün qoydular. İstefa qərarımı əslində qurultay günü vermişdim. Müsavatı bu gün belə zəif görmək mənim üçün ürəkağrıdan mənzərədir. Heyf o partiyaya ki, onu belə vəziyyətə saldılar. Bunu kimlər etdi, hər şey göz önündədir. Zamanında layiq bilmədiyimiz cırtdan partiyalar var idi. Seçkilər ərəfəsində Müsavatın sıralarında durmaq istəyirdilər ki, üzdə görünsünlər, gələcəkdə hakimiyyət dəyişikliyi olanda nəsə pay qoparsınlar. Amma gör biz nə günə düşmüşük ki, indi onlardan da zəif durumdayıq. Bu baxımdan, Müsavatda olan daxili qalmaqallarda olmaq istəmədim, iyrəndim bu cür söhbətlərdən. Elə insanlarla üz-üzə belə gəlmək istəmirəm. Bəyanatımın üzərində dururam, geri götürmək fikrim yoxdur".

**Sabiq partiya funksioneri Müsavat rəhbərliyinin ünvanına ağır ittihamlar da səsləndirdi:** "Qurultayda İsa Qəmbər və Arif Hacılının saxtakarlığının hamı şahidi oldu. Bunu hamımız bilirik. Saxtakarlığın ən böyüyünü İsa Qəmbərin özü etdi. Bir məsəl var: "Balıq başdan iylənir". Uzun illərdir hakimiyyəti saxtakarlıq etdiyinə görə tənqid atəşinə tuturuq. Amma bu gün hakimiyyətin qarşısında nəsə deməyə sözümüz qalmayıb. Qurultaydan sonra müsavatçı olaraq, dəfələrlə mənə dedilər ki, sizin danışmağa haqqınız yoxdur, mən də bu sözlərin qarşısında dəfələrlə susmuşam. Çünki hazırkı Müsavat rəhbərliyi hakimiyyətdən fərqlənməyən saxtakarlığa əl atdılar. Qurultayda ədalətli nəticə o ola bilərdi ki, Qubad İbadoğlu başqan seçilsin. Hər cəhətdən o, başqanlığa layiq idi. Qubad bəy öz gücünü ortalığa qoydu. İsa Qəmbər və Arif Hacılı birləşsələr də, Qubad bəy 200 səs yığdı. Həmin səsləri partiya fəalları verdilər. Cüzi səslə Arif Hacılı qalib gəldi ki, bu da İsa bəyin təsiri idi. Müsavatın ən əqidəli insanları Qubad İbadoğlunun ətrafında olacaqlar. Mən də bundan sonrakı fəaliyyətimi ADR-də davam etdirəcəyəm. Bu təşkilat daha da genişlənəcək. Qurultayda haqqı gördüm və Qubad bəyi dəstəklədim. Onun təbliğatında aktiv iştirak etdim. İndi istefa versəm də, partiyada qalan şəxslərə gələcək işlərində uğurlar arzulayıram. Onlara başqa deyiləcək sözüm yoxdur. Öz yollarını seçiblər".

❑ **Cavanşir ABBASLI**

# Bəxtiyar Hacıyev cərimələndi

## Hüquq müdafiəçisi: "Barəmdə inzibati həbs cəzası istənilmişdi"

**Hüquq müdafiəçisi Bəxtiyar Hacıyevin Dövlət Yol Polisi ilə Yasamal Rayon Məhkəməsində iki gün davam edən məhkəməsi yekunlaşıb. Gənc fəal 100 manat cərimə olunub. Qərardan apelyasiya şikayəti veriləcək.**



Bu barədə müsavat.com-a danışan B.Hacıyev bunları deyib: "Baxmayaraq ki, barəmdə inzibati həbs cəzası istənilmişdi, amma 100 manat cərimə olundum. Qərardan apelyasiya şikayəti verəcəyik. Ortada heç bir fakt yoxdur. Bizim vəsatətlərimizdə polis bölməsindəki və hadisə yerindəki kamera görüntülərinin məhkəməyə gətirilməsi var idi. Amma məhkəməyə gətirilən kamera görüntülərinin heç birində hadisə ilə bağlı heç nə yox idi. Sadəcə, polis şöbəsinin əməkdaşlıq etdiyi və bunu gizlətmədikləri hal şahidləri məhkəməyə gətirilmişdi. Onların ifadələri əsasında məhkəmə qərar çıxardı. Dövlət Yol Polisi hər addımda vətəndaşları narahat etmək üçün əllərindən gələni edir. Mən də sürücü və piyada kimi bu qanunsuzluqlarla üzləşirəm. Artıq görürəm ki, onların özbaşınalığı artır. Cəriməsi ödənməyən avtomobil cərimə meydançasına aparılır. Ondan sonra cərimədən əlavə də pul alırlar. Bütün bunlar vətəndaşları dövlətdən narazı salan addımlardır. Ciddi islahatların aparılmasının tərəfdarıyam. Bundan sonra bu istiqamətdə tənqidlərimi edəcəm, təkliflərimi verəcəyəm. Bu yaxından DYP bu məsələləri ictimailəşdirdiyimi dedi. Əgər bu istiqamətdə hansısa işlərin görülməsi fəaliyyəti olarsa, təkliflərimi verməyə hazıram".

Qeyd edək ki, B.Hacıyev avqustun DYP əməkdaşları ilə yaranan insident səbəbi ilə 27-ci polis bölməsinə aparılmışdı. Ona qarşı xırda xuliqanlıq maddəsi irəli sürülmüşdü. İki gün idi ki, məhkəmə prosesi təxirə salınmalarla davam edirdi.

❑ **Cavanşir ABBASLI**

## Xədicə İsmayılla bağlı daha bir məhkəmə başladı

**Jurnalist Baş Prokurorluqdan 29 min 30 manat kompensasiya tələb edib.**



Avqustun 17-də Səbayel Rayon Məhkəməsində jurnalist Xədicə İsmayılın Baş Prokurorluğa qarşı irəli sürdüyü kompensasiya iddiası üzrə məhkəmə prosesi başlayıb.

"Qafqazinfo"nun verdiyi xəbərə görə, hakim Azər Tağıyevin sədrliyi ilə məhkəmənin hazırlıq iclası keçirilib.

Məhkəmə prosesi avqustun 24-də davam etdiriləcək.

Qeyd edək ki, Xədicə İsmayıl iddia ərizəsində göstərib ki, 2014-cü il dekabrın 5-də CM-in 125-ci maddəsi ilə ittiham edilərək həbs olunub. O, ötən il martın 6-dək məhz 125-ci maddə ilə həbsdə saxlanılıb. Jurnalist 91 gün həbsdə saxlandığı üçün Baş Prokurorluqdan 29 min 30 manat kompensasiya tələb edib.

Onu da qeyd edək ki, Xədicə İsmayıl jurnalist Tural Mustafayevi özünü öldürmə həddinə çatdırmada şübhəli bilinərək barəsində həbs-qətimkan tədbiri seçilib. Daha sonra Xədicə İsmayıla qarşı yeni ittihamlar irəli sürülüb. O, Cinayət Məcəlləsinin 179.3.2-ci (mənimsəmə və israf etmə- külli miqdarda törədildikdə), 192.2.2 (qanunsuz sahibkarlıq), 213.1(vergi ödəməkdən yayınma) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri üzrə də təqsirləndirilib.

X.İsmayıl Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmünə əsasən, ona Cinayət Məcəlləsinin 125-ci (ölüm həddinə çatdırma) maddəsi ilə bəraət verilsə də, digər maddələr üzrə 7 il 5 ay müddətində azadlıqdan məhrum edilib. Ali Məhkəmə kassasiya şikayəti verən X.İsmayılın cəzasının 3 il 6 ay müddətinə şərti cəza ilə əvəzlənməsinə dair qərar qəbul edib və o, azadlığa buraxılıb. Ona ittiham olunduğu Cinayət Məcəlləsinin 179 və 308-ci maddələri üzrə bəraət verilib.

Sonradan Xədicə İsmayıl Cinayət Məcəlləsinin 192-ci maddəsi üzrə işə xitam verilməsini istəyib. Məhkəmə onun barəsində seçilmiş cəza müddətini 3 il 6 aydan 2 il 3 aya qədər azaldıb.

# Apelyasiya Məhkəməsi Natiq Cəfərlini həbsdə saxladı

## İqtisadçı ekspertlə bağlı Avropa Məhkəməsinə müraciət ediləcək; REAL-ın icraçı katibi və həbs edilən digər fəallarla bağlı beynəlxalq reaksiyalar gəldi

**Avqustun 12-də həbs edilən REAL-ın icraçı katibi, iqtisadçı ekspert Natiq Cəfərlinin dünən apelyasiya şikayətinə baxılıb. Hakim Mirzəli Abbasovun sədrliyi ilə keçirilən prosesdə iqtisadçı ekspertin şikayəti təmin olunmayıb.**



Bu barədə mətbuata açıqlama verən N.Cəfərlinin vəkili Cavad Cavadov qərarla bağlı bunları deyib: "Biz Avropa Məhkəməsinə şikayət edəcəyik. 192.1-ci maddə dekriminalizasiya olunub, cinayət məsuliyyətinə cəlb etmə müddəti keçib. 308.2-ci maddəyə gəlincə, o, ittihamı ağırlaşdırmaq, Natiqi həbs etmək üçün qoşulub".

**Vəkil onu da qeyd edib ki, 2014-cü ildən Natiq Cəfərli 15 dəfə Ağır Cinayətlərə Dair İstintaq İdarəsinə çağırılıb. Zəruri sənədləri istintaq orqanlarına təqdim edib:** "Natiq Cəfərlinin daha sonra ölkədən çıxışına məhdudiyyət də götürülüb. Onun həbsinin istər hüquqi, istərsə də digər əsasları mövcud deyil".

Vəkil onu da bildirib ki, Natiq Cəfərli onun adından yazılan ifadənin həqiqəti əks etdirmədiyini söyləyib.

REAL-ın icraçı katibinin və qurumun inzibati həbs cəzasına məruz qalan digər iki fəalının-Elşən Qasımov və Toğrul İsmayılovun, eləcə də NİDA-çı gənc Elgiz Qəhrəmanlının həbsinə artıq beynəlxalq reaksiyalar gəlməyə başlayıb.

**"Biz REAL Hərəkatının icraçı katibi Natiq Cəfərlinin həbsindən çox narahatıq və qəti şəkildə Azərbaycan hökumətini öz fundamental azadlıqlarından yararlanan bu və digər fəalları həbsdən azad etməyə çağırırıq", - ABŞ Dövlət Departamentinin mətbuat katibinin müavini Mark Toner Azərbaycanda vətəndaş fəallarına qarşı yeni təqib və həbs dalğasını "Amerikanın səsi" radiosuna şərh edərkən bildirib.**

Beynəlxalq İnsan Hüquqları Evləri şəbəkəsi Azərbaycanda konstitusiyaya düzəlişlərlə bağlı referendum ərəfəsində fəalların həbsinə görə narahatlığını bildirib.

Təşkilatın bəyanatında deyilir ki, son günlər bir neçə fəal - Natiq Cəfərli, Toğrul İsmayılov və Elgiz Qəhrəmanlı saxlanılıb.

İnsan Hüquqları Evləri şəbəkəsi Azərbaycan hakimiyyətini müxalifətin və referendum əleyhdarlarının qorxudulmasına son qoyulmasına çağırır.

ABŞ Helsinki Komissiyası da özünün twitter akkauntunda Azərbaycanda son həbslərlə bağlı narahatlığını bildirib.

**"Amnesty İnternational" hüquq-müdafiə təşkilatı son günlər REAL Hərəkatının üç fəalı Natiq Cəfərli, Elşən Qasımov və Toğrul İsmayılovun həbsini pisləyib.**

"Azərbaycan hakimiyyəti Natiq Cəfərli, Elşən Qasımov və Toğrul İsmayılovun üzərindən bütün ittihamları götürməli və onları dərhal qeyd-şərtsiz azad etməlidir", "Amnesty İnternational"ın avqustun 16-da yaydığı bəyanatda deyilir.

"Üç siyasi fəalın həbsi hakimiyyət orqanlarının ölkədə fundamental ifadə və assosiasiya azadlığının təmin edilməsinə ardıcıl sərt münasibətinin göstəricisidir", - bəyanatda deyilir.

Xatırladaq ki, REAL Hərəkatının icraçı katibi Natiq Cəfərli avqustun 12-də qanunsuz sahibkarlıq və vəzifə səlahiyyətindən sui-istifadə ittihamı ilə həbs edilib.

REAL fəalları Elşən Qasımov və Toğrul İsmayılov avqustun 15-də saxlanılıblar və növbəti gün polisə tabe olmamaq ittihamı ilə inzibati qaydada 7 sutka həbs ediliblər. NİDA-çı gənc barəsində isə 4 aylıq həbs-qətimkan tədbiri seçilib və onun hələ də harada saxlanıldığı məlum deyil.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 181 (6502) 18 avqust 2016

# İqtidar və müxalifətin "gülənçi" davası - Qafqaz Universitetinin 50 müəllimi işdən çıxarıldı

**Türkiyənin Uşak Rayon İkinci Ağır Cəza Məhkəməsi Fətullahçı Terror Təşkilatı (FETÖ) ilə bağlı 1 il davam edən "paralel dövlət" işinin istintaqı çərçivəsində hazırlanan iddianaməni qəbul edib. APA-nın Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, iddianamədə Fətullah Gülən əsas şübhəli qismində yer alıb.**



Uşak Rayon Prokurorluğu tərəfindən hazırlanan iddianamədə 111 şübhəli şəxs silahlı terror təşkilatı qurmaq və idarə etmək, terroru maliyyələşdirmək, konstitusiya quruluşunu dəyişməyə cəhd göstərmək, hökuməti aradan qaldırmağa təşəbbüs və dələduzluqda təqsirləndirilir. Gülən haqqında isə 2 dəfə ömürlük və 1900 il həbs cəzası tələb edilir.

15 iyul çevriliş cəhdinə rəsmi Bakının reaksiyasından məmnun olan Türkiyə hökuməti Azərbaycanla bu təhlükə ilə bağlı məlumat mübadiləsi aparıldığını, təcrübəni qardaş ölkə ilə bölüşdüyünü bir neçə dəfə bəyan edib. Eyni zamanda Azərbaycanda Gülənə bağlılığı olan çevrələrlə əlaqədar görülən tədbirlərdən də məmnunluq ifadə edilib. Bugünlərdə isə Azərbaycanın Baş Prokurorluğu Fətullah Gülənlə bağlı olan şəbəkə ilə əlaqədar cinayət işinin başlandığını açıqladı. Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov açıqlamasında bildirib ki, cinayət işi Azərbaycanda Gülən tərəfdarlarının qanunsuz hərəkətlərinin qarşısının alınması məqsədini güdür. İstintaq sirri olduğu üçün hələ ki cinayət işi ilə bağlı geniş məlumat verilmir.

Baş Prokurorluq cinayət işinin qaldırıldığı maddələri və istintaq hərəkətləri aparılan şəxslərin dairəsini açıqlamır. Mətbuatın yazdığına görə isə bu istiqamətdə artıq bir çox işlər görülüb, zəruri istintaq tədbirlərinə başlanılıb. Məlumata görə, araşdırmalar çox geniş və əhatəlidir.

Dünən isə Qafqaz Universitetində "gülənçi" olduğu deyilən pedaqoqların kütləvi şəkildə işdən azad olunduğu xəbəri yayılıb. Məlumata görə, universitetdən 50-yə yaxın Türkiyə vətəndaşı olan müəllim vəzifəsindən azad edilib. Bu barədə universitetin müvəqqəti rektoru Elmar Qasımov əmr imzalayıb. E.Qasımov faktı təsdiqləyib. O bildirib ki, türk müəllimlərlə bağlanmış əmək müqaviləsinin müddəti bitib və vaxtı uzadılmayaraq xitam verilib: "Onların arasında professorlar, kafedra müdirləri, dekanlar var. Həmin müəllimlər bu ayın sonuna kimi ölkələrinə qayıdacaqlar. Müqaviləsinə xitam verilən müəllimlərin yerinə yerli kadrlar təyin olunub". Qeyd edək ki, Qafqaz Universiteti müvəqqəti olaraq Bakı Ali Neft Məktəbinin nəzarətinə verilib.

Bu arada iqtidar və müxalifət çevrələri arasında qarşılıqlı şəkildə "gülənçi" ittihamları davam edir, tərəflər bir-birini Fətullah Gülənin şəbəkəsinə daxil olmaqda suçlayır. Baş Prokurorluqda cinayət işinin açılması ilə bağlı xəbər yayılmağa başlayandan isə artıq bəzi adlar çəkilir. Xüsusilə sosial şəbəkələrdə və online mediada "Gülən tərəfdarı" kimi bəzi şəxslərin adları hallandırılır.



**Fazil Mustafa:**
"Hazırkı məqamda Azərbaycan Türkiyənin çağırışına cavab verməlidir"



**İqbal Ağazadə:**
"Əslində onlar daha çox iqtidar düşərgəsində yerləşməyə meyl edirlər"



**Sərdar Cəlaloğlu:**
"Gülən hərəkatı təxminən 3 il əvvəl mənə təklif etdi ki..."

Hazırda Tiflisdə yaşayan müxalifətçi Daşqın Ağalarlı öz facebook səhifəsində bu barədə yazıb. O qeyd edib ki, AXC Nəsimi rayon şöbəsindən silahdaşı olan İslam Səmədov vasitəsilə Gülən camaatını hələ 1989-cu ildən tanımağa başlayıb. 1990-cı illərdən sonra isə o vaxt AXCP üzvü olan Becan Fərzəliyevin Yasamal rayonunda olan mənzilində camaatın təmsilçiləri ilə geniş söhbətin iştirakçılarından olub. AXCP-nin Fətullah Gülənlə əlaqəsi olduğunu vurğulayan D. Ağalarlı hətta eks-prezident Əbülfəz Elçibəyə Fətullah Güləndən məktub gətirdiyini də qeyd edib. Onun iddiasına görə, 1995-ci ildən sonra AXCP strukturlarından hazırkı deputat Fazil Mustafa camaatın etibarını təmsil edib.

**Fazil Mustafa isə lent.az-a açıqlamasında Azərbaycanda gülənçilərin şəbəkəsi olduğunu qeyd edib:** "Onlar ölkədə geniş təhsil sistemi qura biliblər. Onu da qeyd edək ki, bu sistem uzun müddət Türkiyə rəhbərliyi tərəfindən də himayə olunub. Son proseslərdən sonra bu şəbəkənin ABŞ tərəfindən idarə edilməsi barədə iddialar ortaya çıxır. Bu şəbəkənin dövlət çevrilişinə cəhddə əli olmasına dair artıq bəzi sübutlar var. Ona görə də Türkiyədə bu məsələlərin üzərinə bu qədər sərt gedilməsi anlaşılandır".

**F. Mustafa hesab edir ki, hazırkı məqamda Azərbaycan Türkiyənin çağırışına cavab verməlidir:** "Bunun üçün də Türkiyə hakimiyyət orqanları bizdə fəaliyyət göstərən, 15 iyul hadisələrinə qarışmış gülənçilərin adlarını bizə təqdim etməlidirlər. Bizim hakimiyyət də onların zərərsizləşdirilməsi istiqamətində qəti addım atmalıdır. Bu məsələlərdə çox həssas davranmaq lazımdır. Azərbaycan hökuməti çox ağıllı bir addım atdı. Şəbəkənin adı ilə hallanan Qafqaz Universitetinin fəaliyyəti dayandırıldı və bazası Bakı Ali Neft Məktəbinə verildi".

**Deputat qeyd edib ki, Azərbaycan dövləti kifayət qədər güclü olduğundan, belə bir təhlükə varsa, onu asanlıqla aradan qaldırmağın edə bilər. "Türkiyə dövlətçiliyini narahat edən məsələlərdə Azərbaycan tam dəstək verməlidir və verir də"**, - deyə, F.Mustafa qeyd edib. Fazil Mustafa barəsində səslənən iddialara da cavab verib: "Din fəlsəfəsi üzrə mütəxəssis olduğuma görə bütün cərəyanlarla bağlı özümün mülahizəmə malikəm. İslamın əsas mahiyyətindən kənar, vəhhabilik, nurçuluq və digər cərəyanlara qarşı həmişə mümkün qədər mübarizə aparıram. Xalqı maarifləndirməyə çalışıram. Məsələyə həmişə Azərbaycanın maraqlarından yanaşırıq. Buna görə də biz rahatıq. Bu cinayət işində əməlində kriminal olan insanlar mütləq məsuliyyətə cəlb edilməlidir və bu olduqca vacibdir. Hüquq-mühafizə orqanları kimin hansı istiqamətdə fəaliyyət göstərdiyini yaxşı bilir".

**Haqqın.az saytının baş redaktoru Eynulla Fətullayev isə Fətullah Gülənin Azərbaycanda AXCP sədri Əli Kərimli ilə əlaqəsinin olmasını qeyd edən yazı ilə çıxış edib. Məqalədə Əli Kərimlinin ən yaxın tərəfdaşlarından olan jurnalist Qənimət Zahidin "Azərbaycan saatı" adlı verilişinin Türkiyənin "Barış TV" kanalının tezliyindən yayımlandığı, bu kanalın isə Gülənə məxsus olduğu qeyd edilib. E. Fətullayevin yazdığına görə, Türkiyədə aparılmış araşdırmalara əsasən, Əli Kərimlinin fətullahçı dərgi "Kurultay"ın baş redaktoru Aydın Taşla da xüsusi əlaqələri var:** "Dərgi Əli Kərimliyə də tez-tez tribuna verirdi. Və onun çıxışlarında da Azərbaycanda hakimiyyətin devrilməsinə çağırışlar yer alırdı".

Ə.Kərimli isə öz facebook səhifəsində yazıya istinad etmədən özünün "gülənçi" adlandırılmasına etirazını bildirib. Lakin o, məqalədə səsləndirilən fikirlərin heç birinə münasibət bildirməyib. Hüquqşünas Əkrəm Həsənov isə "Gülən camaatı"nın Azərbaycanda da çevriliş etmək cəhdini istisna etməyib.

Bəzi mətbuat orqanları icra başçıları arasında da F.Gülənə yaxın olanların varlığından bəhs edən yazıları tirajlayıb. "Bugünlərdə işdən çıxarılması dəqiqləşən daha bir FETÖ-çu məmurun adı hakimiyyətə məlum olub". Bunu isə cebhe.info xəbər verib. Məlumata görə, həmin məmur sentyabr ayında işdən kənarlaşdırılacaq. Diqqətçəkən odur ki, Rusiya TV-ləri də Azərbaycandakı "gülənçi"lərə xüsusi diqqət ayırır. Belə ki, televiziyalardan biri AXCP sədri Əli Kərimli və tərəfdarlarını "fətullahçı" adlandırıb və ünvanına ittihamlar səsləndirib.

Ümid Partiyasının sədri İqbal Ağazadə bu barədə "Yeni Müsavat"a dedi ki, fətullahçıların Azərbaycanda mövcud olması uzun illər müzakirə olunan mövzulardandır. Konkret olaraq bu barədə rəsmi məlumat olmasa da, qeyri-rəsmi olaraq müxtəlif şəxslərin adları hallandırılıb. İndiyə qədərki yanaşma bu idi ki, gülənçilər hakimiyyətin içərisində təmsil olunub. Əslində Fətullah Gülənin tərəfdarlarının da yürütdüyü xətt onu göstərirdi ki, onlar müxalifətdən daha çox, iqtidar içərisində olmağa meylli olublar. Əgər Türkiyənin özündə bu deyilən faktlar varsa, «gülənçi»lərin müxalifətə yox, iqtidarın içərisinə sızdığını 15 iyul hadisələri ortaya qoydu. Azərbaycan müxalifətində varmı, yoxmu, bu barədə məlumata malik deyiləm, çünki məlumatlar həmişə gizli saxlanılır. Amma Azərbaycanda insanların dini özünə pərdə seçməsi son illərin artan tendensiyasında olsa da, siyasi müxalifətin, yaxud siyasi təşkilatların içərisində bu, çox az nəzərə çarpır".

**İ.Ağazadə xatırlatdı ki, siyasi partiyalar hər zaman bu məsələlərdə ehtiyatlı mövqe tutublar:** "Həmçinin siyasi partiyaların, xüsusilə müxalif siyasi partiyaların Avropaya və Qərbə inteqrasiya məsələsində israrlı mövqe nümayiş etdirməsi bəzən bu məsələlərdə açıq mövqe qoymaqla həmin ideolojiləşmiş şəxslərin siyasi partiyaya gəlişini əngəlləyib. Amma qapalı şəkildə kimin əlaqəsi var, bununla bağlı hər hansı informasiyam yoxdur, harda çoxdur, bunu da demək çətindir. Amma məsələnin mahiyyəti ondadır ki, Fətullah Gülən hərəkatının xarakteri həmişə bu olub ki, onlar daha çox iqtidar düşərgəsində yerləşməyə meyl ediblər, Türkiyədə də bunun bariz nümunəsini gördük. Burda necədir, yəqin ki, onu araşdırmalar göstərə bilər. Əslinə qalsa, mən gerçək mənada «gülənçi»lərin olduğunu qəbul etmirəm. Çünki Azərbaycanda dini ideolojini çox az adam əsas ideoloji xətt kimi seçib. Ola bilər, kiminsə əlaqələri, "salamməleyk"i, ya bağlılığı olsun. Amma məhz həmin cərəyanın yürütdüyü xətt, ya bəlli bir çevrədən kənara bunların mövcud olduğunu fakt kimi qəbul etmirəm". **İ.Ağazadə "fətullahçıları Azərbaycan üçün ciddi təhlükə sayırsınızmı və belə qüvvələr varmı" sualının cavabında bunları söylədi:** "Hələ ki bununla bağlı prokurorluğun rəsmi məlumatı yoxdur. Ola bilər ki, "əl-Qaidə" ilə bağlı da bir cinayət işi açılsın, amma olacaq, ya olmayacaq, bu, araşdırmanın nəticəsində aydınlaşacaq. Mən indidən bu barədə bir söz deyə bilmərəm".

**ADP sədri Sərdar Cəlaloğlu "Fətullah Gülənlə əlaqələrinin olub-olmadığı haqda teleqraf.com-a ilginc açıqlama verib. Sərdar Cəlaloğlu Fətullah Gülən və Nur hərəkatının təmsilçiləri ilə əlaqələrinə də toxunub:** "Bir dəfə məni məclisə dəvət etmişdilər. Burada vaxtilə Naxçıvanda uzun illər rəhbər vəzifədə işləyən dostumla masanın bir tərəfində durub söhbət edirdik. Söhbət əsnasında kənarda duran iki şəxsdən biri müdaxilə edərək mənimlə danışan dostumdan bizi tanış edə biləcəyini soruşdu. Dostum da məni təqdim edərək bildirdi ki, Sərdar Cəlaloğludur, siyasətçidir, partiya sədridir və s. Bu zaman həmin şəxs dostumdan xahiş etdi ki, Sərdar bəylə bizim konfidensial görüşümüzü təşkil etsin. Həmin şəxs Gülənin Bakıdakı məktəblərindən birinin direktoru idi. Sonradan bəlli oldu ki, onun yanındakı şəxs Gülənin buradakı şeyxi, məktəblərə baxan şəxsdir. Belə söhbət oldu, sonra biz ayrıldıq. Bu zaman dostum mənə dedi ki, onlarla konfidensal görüşməyimi, ümumiyyətlə, kontakt saxlamağı məsləhət görmür. Mən də bununla razılaşdım. Beləcə, onlarla kontaktım olmadı. Gülən hərəkatı təxminən 3 il əvvəl mənə təklif etdi ki, biz görüşək".

❑ **E.PAŞASOY**

YENİ MÜSAVAT
N 181 (6502) 18 avqust 2016

**Bakı sammiti, prezident Vladimir Putinin səfəri, Rusiya-Türkiyə münasibətlərinin istiləşməsi - qısa müddətdə region və Azərbaycan üçün bir sıra vacib hadisələr baş verib. Sputnik.az saytı onların rolu və gələcək perspektivi haqqında hüquq elmləri doktoru professor İlham Rəhimova suallar ünvanlayıb. Müsahibəni təqdim edirik.**



# "5+2, sonra status" formulu bizim üçün məqbul deyil"

## İlham Rəhimov: "Rusiya ilə Türkiyə nə qədər yaxın olsa, Moskvanın Ankaranı Qarabağ probleminin həllinə cəlb etmək imkanı o qədər çox olar"

**- İlham müəllim, son günlər respublikamıza bilavasitə dəxli olan siyasi hadisələrlə zəngin olub. Onlar barədə KİV-də müxtəlif rəylər bildirilir. Bu hadisələrə Sizin münasibətinizi bilmək istərdik. Bakıda keçirilən sammitdən başlayaq. Onun nəticələrini necə qiymətləndirirsiniz?**

- Şübhəsiz, bu sammit iqtisadi cəhətdən mühüm əhəmiyyət kəsb edir. Üç dövlətin rəhbərlərinin Bakıda keçirilən bu görüşünü üçlü iqtisadi ittifaq adlandırardım, çünki bu görüş siyasi xarakter daşımırdı. Hərçənd məncə, bir zamanlar Karl Marks deyib ki, iqtisadiyyat siyasəti müəyyən edir.

**- Moskva-Bakı-Tehran üçtərəfli münasibətlərinin inkişaf perspektivi necədir?**

- Bu ölkələrin imzaladığı müqavilələr həyata keçirilsə, iqtisadi cəhətdən perspektivlər müsbətdir. Hesab edirəm ki, yuxarıda sadalanan ölkələrin böyük perspektivi var, obyektiv nizamlama olsa, uzun müddət regionda geosiyasi və geoiqtisadi ovqatı müəyyən edə bilərlər.

**- Dediyiniz iqtisadi ittifaqı siyasi birliyə çevirmək mümkündürmü?**

- Belə bir forma dəyişikliyi üçün hansısa səbəb olduğunu düşünmürəm. Terrorçuluqla mübarizə ilə bağlı müqavilə istisna olunmaqla, buna ehtiyac da yoxdur. Bundan başqa, Moskva və Bakıdan fərqli olaraq Tehran ideoloji cəhətdən fərqli dövlətdir. Bu isə dünyəvi dövlətlərlə siyasi ittifaq üçün ciddi maneədir.

**- Söhbətimizin ikinci mövzusuna keçək. Söhbət Putinin Bakıya səfərindən gedir. Bu səfər Qarabağ münaqişəsinin həllinə təsir edəcəkmi?**

- Öncə xatırladım ki, bu, Putinin Bakıya ilk səfəri deyil. 15 il ərzində Rusiya prezidenti dəfələrlə ölkəmizə rəsmi səfər edib. Amma bu, Qarabağdakı vəziyyətə ciddi təsir etməyib, hərçənd əminəm ki, o, problemin həllini istəyir. Əmin olmaq bir yana, bilirəm ki, Vladimir Putin buna çalışır. Son səfərə gəlincə, o, sırf Qarabağ məsələsinə həsr edilməyib. Üstəlik, bu yaxınlarda Rusiya prezidentinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan prezidentləri arasında görüş keçirilib. Amma şübhəsiz, prezident Əliyevlə Putinin görüşündə bu məsələ müzakirə predmeti olmaya bilməzdi.

**- Xalq arasında belə bir fikir var ki, Putin istəsə, problemi həll edər. Bu, belədir?**

- Axı Dmitri Medvedyev Rusiya prezidenti olanda da problem həllini tapmadı. Halbuki onun dövlət başçısı olduğu dörd ildə, səhv etmirəmsə, Medvedyevin iştirakı ilə Azərbaycan və Ermənistan prezidentləri arasında 18 görüş keçirilib. Deməli, məsələ təkcə Putinlik deyil. Yeri gəlmişkən o, bu yaxınlarda qeyd etdi ki, bu münaqişə sovet dövründə başlayıb. Fikrimcə, Rusiya prezidenti bununla demək istəyirdi ki, münaqişəyə görə günahı Rusiyanın üstünə atmaq lazım deyil. Rusiyanın mövqeyi aydındır: özünüz qərara gəlin, kompromis şərtləri üzrə razılaşın, biz isə sazişin qarantı olaq. Bu, o deməkdir ki, Ermənistanın hərbi-siyasi cəhətdən daha yaxın olmasına baxmayaraq, Rusiya neytral mövqe tutacaq. Ona görə hesab edirəm ki, bir sıra siyasilər və kütləvi informasiya vasitələri kimi Putini ittiham edəndə Yeltsin Rusiyasını da xatırlamaq lazımdır. O, problemi obyektiv həll etməyə cəhd etmir, əksinə, açıq şəkildə Ermənistanın tərəfində çıxış edirdi. Aprel hərbi toqquşmalarına qədər hər kəs əmin idi ki, Ermənistanla müharibə başlasa, Rusiya Ermənistanın tərəfində olacaq. Bizim siyasətçilər də belə proqnoz verirdi, amma mən hər zaman demişəm: nə qədər ki, Putin hakimiyyətdədir, RF heç vaxt bu hərbi toqquşmalarda kiminsə, xüsusən Ermənsitanın tərəfində olmayacaq. Aprel hadisələri mənim haqlı olduğumu göstərdi.

**- Məlum olduğu kimi, indi Qarabağ münaqişəsinin "əvvəlcə 5+2, sonra status" formatında müzakirəsi gedir. Bu variant bir çox ekspertlərə real görünür. Amma bizə məlum olana görə, Siz bu variantı Azərbaycan üçün məqbul saymırsınız.**

- Hər şeydən əvvəl, biz özümüz perspektiv əhəmiyyəti olan bir sıra prinsipial məsələlər üzrə mövqeyimizi müəyyən etməliyik. Əvvəla, ondan çıxış etmək lazımdır ki, yeddi rayon yox, məhz Dağlıq Qarabağ müzakirə predmeti olmalıdır. Çünki biz öz diqqətimizi, dünya ictimaiyyətinin və beynəlxalq təşkilatların diqqətini bu ərazilərin azad edilməsinə cəmləşdirəndə Dağlıq Qarabağ məsələsində mövqeyimizi zəiflədirik. Hesab edirəm ki, Ermənistan bundan uğurla istifadə edir və diqqətimizi əsas müzakirə predmetindən yayındırır. Orda yaxşı bilirlər ki, işğal edilmiş rayonlar istənilən halda azad ediləcək, çünki bu işğal edilmiş ərazilər sovet dövründə DQMV-nin tərkibinə daxil deyildi. Onların məqsədi bu rayonlar yox, Dağlıq Qarabağdır. Əgər bu gün Ermənistan, hətta söhbət ona əslində lazım olmayan 5 rayonun azad edilməsindən gedəndə belə, çətinliklə və minnət qoyaraq danışıqlar masasına oturursa, sual yaranır: söhbət bizim üçün prinsipial olan Dağlıq Qarabağın statusundan gedəndə masaya oturacaqmı? Məhz buna görə "5+2, sonra status" formulu bizim üçün məqbul deyil.

Hesab edirəm ki, Dağlıq Qarabağ problemi yalnız ölkə prezidentinin dəfələrlə və qəti şəkildə dediyi prinsipial müddəa əsasında həll edilməlidir: Dağlıq Qarabağ heç vaxt Ermənistanın tərkibində və ya müstəqil olmayacaq, onun statusu Azərbaycanın ərazi bütövlüyü prinsipi əsasında həll edilməlidir. Diqqəti daha bir vacib məqama cəlb etmək istəyirəm. Məlumdur ki, Qarabağ münaqişəsinin müzakirəsi zamanı Ermənistan hər zaman beynəlxalq hüquqdakı millətin öz müqəddəratını müəyyən etməsi hüququ normasını əsas gətirir. Dünya praktikası göstərir ki, bu prinsiplə ərazi bütövlüyü prinsipi ziddiyyət təşkil edir.

Hətta sübut etməyə cəhd etməyə dəyməz ki, erməni xalqının artıq öz dövləti var və ikinci dövlətin yaradılması məqbul deyil. Problem başqa yerdədir: təəssüflə qeyd edim, tez-tez eşidirik ki, dünya praktikasında millətin öz müqəddəratını müəyyən etməsi hüququ digər prinsip - ərazi bütövlüyü prinsipi üzərində dominantlıq edir. Məhz buna görə hesab edirəm ki, Dağlıq Qarabağın statusunu aydın olmayan şərtlərlə qeyri-müəyyən müddətə naməlum gələcəyə saxlamaq olmaz. Daha yaxşı olar ki, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində onlara ən yüksək status verilsin. Ümumiyyətlə, hesab edirəm ki, indinin özündə Dağlıq Qarabağ əhalisi ilə bağlı dəqiq və aydın siyasətimiz olmalıdır. Vurğulamaq istəyirəm ki, söhbət hərbi birləşmələrdən yox, mülki əhalidən gedir. Onların işi aydındır. Biz bəyan etməliyik ki, bu ərazidə yaşayan dinc sakinlərin hamısı bizim vətəndaşımızdır. Ona görə onlara Azərbaycan vətəndaşı kimi yanaşılmalıdır. Normal əlaqələr qurmaq lazımdır ki, anlasınlar: onların gələcəyi, əlbəttə, bunu istəsələr, məhz Azərbaycanla bağlıdır.

**- Gəlin eyni dərəcədə maraqlı və vacib olan məsələyə keçək. Söhbət Rusiya-Türkiyə münasibətlərindən gedir. Xatirimizdədir, Türkiyə HHQ tərəfindən vurulan Rusiya qırıcısı ilə bağlı insidentdən dərhal sonra Siz qeyd etdiniz ki, bu ölkələr arsında münasibətlərin pozulmasından yalnız Türkiyə və Rusiyanı istəməyənlər qazanır. İndi Türkiyə və Rusiya prezidentlərinin Peterburq görüşünü necə qiymətləndirirsiniz? Böyük barışıq baş tutdumu?**

- Əgər xatırlayırsınızsa, mən onda dedim: baş verənlər olmaya da bilərdi, yəni qırıcı təyyarəni vurmadan münaqişədən qaçmaq olardı, çünki dövlətlər arasında sərhədlərin pozulması adi haldır. Həmin müsahibədə Türkiyə ilə Rusiya arasında geniş mənada münasibətlərin yüksək səviyyəsini xüsusi qeyd etdim. Bu da kimlərinsə xoşuna gəlmir. Təəssüf ki, bu hadisədən sonra bizdə də bəzi siyasətçilər və kütləvi informasiya vasitələri barışıq yolu tutmaqdansa, odun üstünə yağ tökməklə düşmənimizə bənzədi.

Elə təəssürat yarandı ki, onlar münasibətlərin pisləşməsinin ilk növbədə bizə, Azərbaycana zərbə olduğunu anlamadan buna sevinirlər. Yeri gəlmişkən, hər şey qaydasına düşəndən sonra həmin siyasətçilər baxışlarını 180 dərəcə dəyişdilər. Mən hələ o vaxt deyirdim ki, vaxt gələcək və hər şey yoluna düşəcək, çünki bir qalmaqalla Putinin Rusiyada hakimiyyətə gəldiyi son 15 il ərzində əldə edilənlərin hamısının üzərindən xətt çəkmək olmaz. Münasibətlərin soyuq olduğu bu aylarda həm Türkiyəyə, həm də Rusiyaya çox gedirdim, bu işə öz töhfəmi verməyə cəhd edirdim: hər iki ölkədə münasibətlərin nizamlanmasında əhəmiyyətli rol oynayan olduqca nüfuzlu şəxslərlə görüşürdüm. Prinsipcə, xüsusi qeyd etmək istəyirəm ki, türk və rus xalqları, eləcə də siyasətçiləri də baş verənlərdən çox məyus olmuşdu. Onlar ümid edir və yaxın zamanda ağlın emosiyaya qalib gəlməsi üçün çalışırdılar. Eyni zamanda barışıqdan sonra bu ölkələrdə oldum və hər iki xalqın sevincinin şahidi oldum. Güman edirəm ki, bu münasibətlər və əlaqələr əvvəlkindən də möhkəm olacaq.

**- Təyyarə ilə bağlı qalmaqaldan sonra Rusiya-Türkiyə münasibətləri mövzusunda Vladimir Putinlə danışmısınız? Ümumi şəkildə deyə bilərsinizmi ki, o, barışıq tərəfdarı olub, yoxsa əksinə?**

- Əgər desəm bu mövzuda Vladimir Putinlə danışmamışam, bu, mənim tərəfimdən qeyri-səmimilik olar.

**- Düzü, heç kim inanmazdı da...**

- Təkcə bunu deyim: əgər o, barışığa meylli olmasaydı, barışıq olmazdı. Hələ o zaman deyirdim ki, Putinlə Ərdoğan arasında münasibətlər o qədər yaxın və etibarlı idi, məsələ iki lider arasında böyük dostluğa doğru gedirdi. Münasibətləri qiymətləndirən Putinin xasiyyətini bilərək anlayırdım ki, eyni zamanda belə prinsipial adam şərtlərindən geri çəkilməyəcək. Elə də oldu: Ərdoğanın birinci məktubundan dərhal sonra Putin ona əl uzatdı.

**- Bu barışıq Dağlıq Qarabağ probleminin həllinə təsir edə bilərmi?**

- Həmişə deyirdim ki, Moskva ilə Ankara arasında münasibətlərin ən yüksək səviyyədə olmasını çox istəyirəm. Təkcə ona görə yox ki, belə münasibətlər mənimlə çox bağlılığı olan hər iki dövlətə və xalqa sərf edir. Səbəb budur ki, Rusiya ilə Türkiyə arasında yaxşı münasibətlər Qarabağ məsələsinin həllində də çox vacibdir. Rusiya ilə Türkiyə nə qədər yaxın olsa, Moskvanın Ankaranı Qarabağ münaqişəsinin həllinə cəlb etmək imkanları bir o qədər çox olacaq. Bəlkə hələlik qeyri-fəal formada, ancaq heç olmasa hansısa məsələlərin müzakirəsində. Kiminsə xoşuna gəlir, yoxsa yox, ancaq Dağlıq Qarabağ probleminin həlli və Türkiyə-Ermənistan sərhədinin açılması məsələsi sıx əlaqəlidir. Axı hələ təyyarə qalmaqalından əvvəl Putinlə Ərdoğanın heç bir görüşü Qarabağ münaqişəsinin müzakirəsi olmadan keçmirdi. Yəni bu ölkələr arasında böyük barışığı Qarabağ münaqişəsinin həllini arzulayan hər bir azərbaycanlı dəstəkləməlidir.

YENİ MÜSAVAT
N 181 (6502) 18 avqust 2016

# “Moskva Bakıya öz hərbi planını təqdim edib”

# Rus nəşrindən sensasion iddia - Kreml Bakıdan cavab gözləyir

## Azərbaycanla Rusiya arasında intensivləşən hərbi müzakirələrin detalları açılır; Bakı-Moskva marşrutu üzrə yüksək səviyyəli qarşılıqlı səfərlərin daha bir pərdəarxası...

**Rusiyanın müdafiə naziri Sergey Şoyqunun Azərbaycana iki günlük işgüzar səfəri ətrafında qızğın müzakirələr və gəlişmələr davam edir. Maraqlıdır ki, az qala hər gün bu səfərlə bağlı yeni və ilginc detallar üzə çıxmaqdadır.**




Bu da əslində səbəbsiz deyil. Əvvəla, ona görə ki, Sergey Şoyqu sıradan bir şəxs deyil, Rusiya kimi iri bir dövlətin, böyük silah satıcısı olan ölkənin müdafiə sisteminə rəhbərlik edən, hərbi-sənaye kompleksinə ən yaxın olan, generalitetin başında duran şəxsdir. Eyni zamanda prezident Vladimir Putinin inandığı fiqurlardan biridir.

İkinci yandan, onun Bakı səfəri elə Vladimir Putinin Bakı səfərindən dərhal sonraya təsadüf edib ki, bu da həmin səfərə xüsusi ağırlıq qatıb. Yəni belə qənaət hasil olur ki, Azərbaycandan qayıdan Rusiya prezidenti güc nazirini ölkəmizə elə özü göndərib ki, bu da operativ rejimdə həllini gözləyən hansısa ilkin anlaşmalar və ya planlarla bağlı olub.

Bu qənaəti möhkəmlədən başqa bir mühüm məqam əlbəttə ki Azərbaycanın müdafiə naziri Zakir Həsənovun Şoyqudan iki gün öncə Moskvada olması, orada öz həmkarı ilə danışıqlar aparmasıdır.

***

**Maraqlıdır ki, dünən Rusiyanın nüfuzlu nəşrlərindən olan “İzvestiya” qəzeti yazıb ki, S.Şoyqu Bakı səfəri zamanı Azərbaycan rəhbərliyinə Rusiyanın hərbi planını təqdim edib. Qəzet yazır:** “Rusiya və Azərbaycanın müdafiə nazirləri Xəzərdə kollektiv təhlükəsizlik sisteminin yaradılması və Rusiya silahlarının tədarükünə dair planların mübadiləsini ediblər. Bu səylərin yekun hədəfi - qarşılıqlı etimadı gücləndirmək və regionda insidentləri önləməkdir”.

“Paralel surətdə Rusiya silahlarının Azərbaycana çatdırılması ilə bağlı nomenklatur dəyişikliklər müzakirə olunub”, - deyə nəşr hərbi-diplomatik dairələrdəki etibarlı mənbəyə istinadən daha sonra qeyd edib. “İzvestiya” qaynağının sözlərinə görə, Şoyqu Bakı səfəri çərçivəsində Azərbaycan rəhbərliyinə Rusiya hərbi idarəsinin təkliflər paketini təqdim edib və Azərbaycan tərəfindən qarşılıqlı təkliflər alıb. “İndi qalır tərəflərin öz mövqelərini razılaşdırması” - qəzet vurğulayıb.

Rusiya müdafiə nazirinin Bakıda apardığı danışıqların başqa mühüm mövzusu, məlum olduğu kimi, iki ölkə arasında hərbi-texniki əməkdaşlıq olub. “İzvestiya”nın mötəbər qaynağının bildirdiyinə görə, söhbət bir neçə il öncə imzalanmış iri hərbi müqaviləyə qismən dəyişiklik eləməkdən gedir.

**Bu yerdə yada salaq ki, Rusiyanın müdafiə naziri Bakıda azərbaycanlı həmkarı ilə görüşdən öncə bildirmişdi:** “Bizim hərbi və hərbi-texniki əməkdaşlıqla bağlı böyük proqramımız var və bu proqram düzəlişlər və bır sıra məsələlərin həllini tələb edir”.

**Nəşr daha sonra yazır:** “Azərbaycan Müdafiə Nazirliyində hansı silahlardan söhbət getdiyini deyə bilmədilər. Lakin ”Silahların ixracı" *(“Eksport voorujeniy”)* jurnalının baş redaktoru Andrey Frolov güman edir ki, bu gün müqavilənin müəyyən ümumi məbləği var və həmin müqavilə çərçivəsində azərbaycanlılar tədarükü öncədən razılaşdırılmış bəzi silahlardan imtina edib, onları başqaları ilə əvəzləmək istəyirlər. Ola bilsin söhbət Qarabağda aprel döyüşləri zamanı istifadə edilmiş döyüş sursatlarını, məsələn, “Smerç” üçün sursatları almaqdan gedir. Nədən ki, bu, daha aktualdır, nəinki ağır hərbi sistemlərin alınması. Bakı həmçinin BMP-3-lərdən imtina edə bilər, çünki bu, hərbi əməliyyatların konkret teatrı şəraitində elə də prioritet texnika deyil. Onları zərbə sistemləri ilə - ya təzə “Smerç”lərlə, ya da “Msta” özüyeriyən artilleriya sistemləri ilə əvəz eləmək olar. Azərbaycan habelə “Mi-35" döyüş vertolyotlarının əlavə partiyasını almaq fikrindədir. Bakıda həmçinin pilotsuz uçuş aparatlarına qarşı effektli olan ”Pantsir" zenit kompleksləri ilə maraqlana bilərlər".

***

Göründüyü kimi, Moskva və Bakı hərbi və hərbi-texniki sahədə faktiki olaraq yeni bir anlaşmanın içindədir və “İzvestiya” nəşrinin yazdıqlarını mötəbər hesab eləsək, tərəflər hərbi əməkdaşlığın növbəti mərhələsinə çıxmaq ərəfəsindədir. Lakin bundan qabaq Azərbaycan tərəfi öz istəyini konkret şəkildə qarşı tərəfə çatdırmalıdır.

Nəşrin vurğuladığı kimi, “İndi qalır tərəflərin öz mövqelərini razılaşdırması”. Yəqin ki, bu proses uzun çəkməyəcək, Bakının cavabı gecikməyəcək. Ən azı ona hörə ki, hərbi və hərbi-texniki məsələlər yubanmağı sevmir. Üstəlik, ortada həll olunmamış Dağlıq Qarabağ ixtilafı kimi müştərək problem var.

İş də ondadır ki, Rusiya Azərbaycana həvəslə müasir silahlar satmaqla kommersiya maraqları ilə yanaşı, şübhəsiz ki, siyasi və geosiyasi maraqlar da güdür. O cümlədən Azərbaycanın müəyyən hərbi ehtiyaclarını ödəməklə onu Kremlə daha möhkəm bağlamaq, ölkəmizi Avrasiya layihələrinə, hətta KTMT-yə qoşmaq, Qarabağ ixtilafının həllində müəyyən irəliləyişi təmin edib, bu fonda özünün sülhməramlılarını bölgəyə yeritmək üçün əlverişli zəmin hazırlamaq hədəfləri də var.

❑ **Analitik xidmət**

# QKÇP və Türkiyədəki 15 iyul qiyamının oxşar və fərqli cəhətləri

## Rusiyadakı QKÇP hadisələrindən 25 il ötür; **Qabil Hüseynli:** “Əgər Qərb QKÇP-nin məğlub olmasında maraqlı idisə, Türkiyədəki 15 iyul çevriliş cəhdi ilə bağlı bunu demək mümkün deyil...”

**1991-ci il, avqustun 19-da SSRİ-nin vitse-prezidenti Gennadi Yanayevin rəhbərliyi altında Dövlət Fövqəladə Vəziyyət Komitəsinin (QKÇP) SSRİ prezidenti Mixail Qorbaçova qarşı qiyamından 25 il keçir. 1991-ci il avqustun 18-dən 19-na keçən gecə Moskvaya qoşun yeridən və dövlət televiziyasını ələ keçirən QKÇP-çilər həmin gün istirahətdə olan prezident Mixail Qorbaçovu hakimiyyətdən kənarlaşdırmışdılar və Krımdakı malikanəsində təcrid etmişdilər. Avqustun 22-dək hakimiyyət faktiki olaraq QKÇP-də olmuşdu.**



**Tarixçi professor, politoloq Qabil Hüseynli** QKÇP hadisələri ilə 2016-cı ilin 15 iyulunda Türkiyədəki hərbi çevrilişə cəhd hadisəsi arasında paralel aparmağın mümkün olduğunu düşünür. Onun sözlərinə görə, hər iki hadisənin müəyyən cəhətlərinin bir-birinə bənzədiyini söyləmək olar: “Əslində QKÇP Türkiyədəki hərbi çevrilişə cəhddən xeyli irəli getmişdi. QKÇP hakimiyyətin başında duran şəxsi devirmişdi və avqustun 22-dək hakimiyyəti əldə saxlamışdı. Türkiyədə 15 iyul hərbi çevrilişinə cəhd isə buna gətirmədi, Ərdoğanı bir dəqiqə də olsun hakimiyyət başından uzaqlaşdıra bilmədilər. QKÇP-nin rəhbərləri Qorbaçovu iş başından uzaqlaşdırmaqlarına səbəb kimi onu göstərirdilər ki, ölkədə sosializm quruluşu düzgün aparılmır, ölkə Leninizmin müəyyən etdiyi prinsiplərdən uzaqlaşır. Qorbaçovun yenidənqurma və aşkarlıq prinsipləri Qərbə satılmaq kimi dəyərləndirilirdi, ümumiyyətlə, Qorbaçov islahatlarının hədəfə çatmadığını bəyan edirdilər. Onlar hətta Qorbaçov üzərində mühakimə qurmaq niyyətindəydilər. Amma xalq öz sözünü dedi, hadisəni hərbi çevriliş kimi qəbul etdi və buna qarşı çıxdı. Doğrudan da QKÇP-nin əsas fiqurları SSRİ-nin o zamankı DTK-sının sədri Vladimir Kryuçkov, müdafiə naziri Dmitri Yazov, daxili işlər naziri Viktor Puqo *(qiyam yatırıldıqdan sonra özünü güllələyib),* baş nazir Valentin Pavlov, Müdafiə Şurası katibinin 1-ci müavini Oleq Baklanov, SSRİ Kəndlilər İttifaqının katibi Vasili Starodubsev, SSRİ-nin vitse-prezidenti Gennadi Yanayev (QKÇP-nin katibi) idilər. Qiyamçı komitənin əsas hədəfi özünün Mərkəzi Televiziya ilə səhər saatlarında elan elədiyi kimi, Mixail Qorbaçovun apardığı aşkarlıq və yenidənqurma siyasətini durdurub SSRİ-ni əvvəlki totalitar əyyama qaytarmaq idi. Qurum üzvləri bildirirdilər ki, Mixail Qorbaçov Sovet İttifaqını dağıtmağa doğru aparır. Qorbaçov da çevriliş edilən gün ailəsi ilə birgə Krımda istirahət edirdi və oradaca dərhal ev dustağı edilmişdi. Fəqət, çevriliş sovet xalqının dəstəyini qazana, qələbə ilə yekunlaşa bilmədi və cəmi 3 gün sonra qiyam hesab edilərək yatırıldı, üzvləri həbs edildilər”.

**Politoloqa görə, məğlubiyyətin bir neçə mühüm səbəbi var idi, hansıları ki, QKÇP-çilər böyük ölçüdə ciddiyə ala bilməmişdilər:** “Ən birinci amil artıq xeyli vaxt idi SSRİ-də xalq hərəkatlarının başlanması, respublikalarda müstəqillik tələblərinin meydana gəlməsi idi. İnsanlar, ələlxüsus gənc nəsil qapalı və dəmir pərdə arxasında, sərt rejimdə bir daha yaşamaq istəmirdilər. QKÇP-yə qarşı dayananlar içərisində Sovet Rusiyasının rəhbəri Boris Yeltsin başda gəlirdi. Yeltsin və onun ətrafında formalaşan yeni demokratlar Moskva əhalisini ayağa qaldıra bildilər və QKÇP-çiləri, onları müdafiə edən hərbi hissələri xalq mühasirəyə aldı. Qiyamın yatırılması zamanı iki şəxs həlak oldu. Nəticədə QKÇP-nin rəhbərlərindən olan milli təhlükəsizlik naziri və müdafiə naziri ordunun kazarmalara çəkilməsi haqqında əmr verdi. Hərbi çevriliş avqustun 22-də uğursuzluqla başa çatdı. Burada Qərbin də QKÇP-yə qarşı olması müəyyən qədər rol oynamışdı”.

**Politoloqun apardığı daha bir paralelik isə odur ki, Türkiyədəki 15 iyul hərbi çevrilişə cəhd hadisəsində də hərbçilər öndə idi, burada da hakimiyyətin cari siyasətindən narazı olduqlarını əsas göstərək çevrilişə cəhd etdiklərini açıqlamışdılar:** “Burada da xalq çevrilişcilərin yanında yox, qarşısında idi. Generalların TRT-dən xalqa ünvanlanan bəyanatında deyilirdi ki, onlar Atatürk ideyalarının daşıyıcılarıdırlar, ölkədə yürüdülən siyasətin Atatürk prinsiplərindən kənara çıxdığını, ölkənin teokratik sistemə doğru irəlilədiyini görürlər və bunun qarşısını almaq üçün hakimiyyəti dəyişirlər. Ola bilsin, həmin generalların xaricdən dəstəkçiləri də var idi. Hərbi çevrilişin qarşısını isə türk xalqı ayağa qalxaraq aldı. QKÇP-dən fərqli olaraq, Türkiyədəki hərbi çevrilişə cəhd cəmi bir neçə saata yatırıldı. QKÇP ilə müqayisədə Türkiyədə baş verən çevriliş cəhdi kiçik miqyaslı hadisə idi - baxmayaraq ki, QKÇP hadisələrində cəmi 3 nəfər həlak olmuşdu, Türkiyədəki 15 iyul hadisələrində isə 250 adamın həlak olduğu deyilir. Fərqlərdən biri də odur ki, Qərb, ABŞ QKÇP-nin məğlub olmasında maraqlı idi və bunun üçün addımlar atılmışdı. Türkiyədəki 15 iyul hərbi çevrilişinə cəhdlə bağlı isə bunu demək mümkün deyil. Türkiyədə qiyamçı hərbçilər hakimiyyətə gəlsəydi, ölkənin aqibəti daha ağır ola bilərdi”.

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 181 (6502) 18 avqust 2016



# Nazir Azad Rəhimova ağır ittihamlara YAP-dan reaksiya

## Akif Nağı “məhkəməyə versə, sözümün arxasındayam” dedi; erməniyə uduzan idmançımız və olimpiada çıxışımız barədə ikili fikirlər var





## Siyavuş Novruzov: “Söyüş-təhqirlə məsələ həll olunmur”

**Rio-2016-da azərbaycanlı idmançıların uğursuz çıxışı gündəmin əsas mövzularından birinə çevrilib. İndiyə qədər bir qızıl belə qazanılmaması, xüsusilə yunan-Roma güləşçimiz Rəsul Çunayevin yarımfinalda erməni rəqibinə məğlub olması sosial şəbəkələr və mətbuatda ciddi müzakirələrə səbəb olub.**

Əsas tənqidi fikirlər isə gənclər və idman naziri Azad Rəhimovun ünvanınadır. Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı öz feysbuq səhifəsində Çunayevin məğlubiyyətinin ardından A.Rəhimovu sərt tənqid edən status paylaşıb. Statusda bu fikirlər yer alır: “Bir neçə gün əvvəl yazmışdım ki, Azad Rəhimovu işdən azad edib, məsuliyyətə cəlb etmək lazımdır. Bu gün Çunayev erməniyə uduzandan sonra fikrimi dəyişdim. Azad Rəhimovun dərisini soyub, cəmdəyini sabun bişirməyə göndərmək lazımdı. Mən olimpiada, dünya və Avropa çempionatlarında bizimkilərin erməni itlərinə uduzduqlarını görməmişdim. Hər halda, xatırlamıram. İndiki məğlubiyyət Azad Rəhimyanın xidmətidir”.

**QAT sədrinin bu fikirləri sensasiya doğurub. Nazir barədəki sözlərinə görə onun məhkəməyə verilə biləcəyi barədə fikirlər dolaşır. A.Nağı “Yeni Müsavat”a açıqlamasında paylaşdığı statusun arxasında dayandığını söylədi:** “Azad Rəhimov nazir kimi öz funksiyalarını icra edə bilmir. Bu yarışmada onun nazir olduğu illərdə fəaliyyətsizliyi üzə çıxdı. Olimpiada 4 ildən bir olur. Buna ciddi şəkildə hazırlaşmaq lazım idi. Bu, xalqın, dövlətin ciddi göstəricisidir. Orada bütün millətlər təmsil olunur. Qazaxların, özbəklərin necə uğurlu çıxışlarının şahidi oluruq. Əvvəldən ciddi hazırlığımız olmayıb. Əvvəlki olimpiada da nailiyyət qazanan idmançıların arxayınlaşdıqları göründü. Ölkədə idmançı yetişdirmək əvəzinə xaricdən idmançı gətirib milliləşdirirlər. Başqa ölkələrdə də bu tipli idmançılar olur. Amma onlar həmin ölkələrdə yaşayırlar, orada doğulublar. Tələm-tələsik birini gətirib Azərbaycan vətəndaşı edərək, idman yarışlarına çıxarmaq çıxış yolu deyil. Bu nöqsanlara öz reaksiyamı bildirdim. Düzdür, idmançıların da günahları var. Amma nəzərə almaq lazımdır ki, seçim nazirlik tərəfindən aparılır. Onlara nəzarəti nazirlik etməlidir. Erməni ilə Çunayev yarışmırdı. Sanki ona tapşırıq verilmişdi ki uduzmalısan. Bürünc medal üçün Rəsul koreyalı ilə görüşdü. Bir fəndlə təmiz qələbə qazandı. Elə bir erməni ilə görüşən Çunayev deyildi. O, ermənidən zəif deyildi, əksinə, daha güclü idi. Qəribə suallar meydana çıxır. Təşkilat rəhbəri, ictimaiyyət nümayəndəsi olaraq, öz narahatlığımı bildirirəm. Bunu araşdırmaq hüquq-mühafizə orqanlarının işidir. Azad Rəhimovun ermənilərə sevgisini görmüşəm. Bir açıqlama vermişdi ki, çox təəssüf Azərbaycanda keçirilən yarışlara ermənilər gəlmirlər. O zaman bildirdim ki, deyəsən, o çaşıb. 2017-ci ildə Azərbaycanda keçiriləcək İslam Oyunlarında ermənilərin iştirak etməyəcəklərindən Azad Rəhimov təəssüfləndiyini dilə gətirmişdi. O bilmir ki, ermənilər iştirak edə bilməzlər, ən azından müsəlman deyillər. Bu hallar rüsvayçılıqdır. Nazir bunlara cavab verməlidir. Onu məhkəməyə vermək fikrim yoxdur. Amma o məni məhkəməyə verərsə, o zaman fikirlərimi məhkəmədə əsaslandırmağa, müdafiə etməyə hazıram”.

**YAP-ın icra katibinin müavini, deputat Siyavuş Novruzov naziri tənqid edənləri qınadı:** “Hazırda yarışma davam edir, idmançılarımızın iştirakı bitməyib. Bu günə qədər gümüş və bürünc medallarımız var. Arzu edək ki, qızıl medalımız da olsun. İdmandan anlayışı olanlar bilməlidirlər ki, bu bir yarışmadır, xüsusilə olimpiada idmanın nüvəsidir. Hər bir idmançı çalışır ki, orada uğur qazansın. Olimpiadaya düşən idmançı zəif olmur. İdmançı neçə mərhələdən keçəndən sonra olimpiadaya vəsiqə qazanır. Keçən yarışda Azərbaycan həm idmançıların, həm də məşqçilərin sayı baxımından yarışda uğurla iştirak etdi. Ölkəmizdə cənab prezidentin rəhbərliyi altında idmana çox böyük qayğı var. Avropanın ən aparıcı yarışları ölkəmizdə keçirilib. Bu idmanımızın göstəricisidir. Orada tamam başqa mühitdir. Burada psixoloji durum, qida, digər idmançıların vəziyyəti var. İdmançının görürsən ki, əhval-ruhiyyəsi yaxşı olur, nəticədə uğurlu çıxış edir, birdən də əksi oldu. İdmanda əhval-ruhiyyə çox önəmlidir. Qabaqcadan tənqidi fikir səsləndirmək, Azərbaycan idmanına kölgə salmaq düzgün deyil. Son illərdə idmanımızın bütün sahələri inkişaf edib. Olimpiadaya uzun mərhələlərdən sonra gəlib çıxmağın özü bir qəhrəmanlıqdır. Rəsul Çunayevin məğlubiyyətini bu qədər müzakirə etməyin tərəfdarı deyiləm. Fransa bir dəfə dünya çempionu futbolda oldu. Amma sonrakı çempionatda uduzdu, geri qayıdan zaman xalq oyunçuları gül-çiçəklə qarşıladı. Bir idmançı udanda onu qəhrəman edirlər, amma sonradan uduzanda başqa cür reaksiya verirlər. İdmanda güclülər vuruşur, burada psixoloji durum, əhval-ruhiyyə bəzən həlledici olur. İdmançı düşünür ki, udsam necə olacaq, uduzsam hansı rəylər formalaşacaq. Ona görə də bu proseslərə səbirlə yanaşmaq lazımdır. Kimin-kimlə qərəzi varsa, özləri aydınlaşdırsınlar. Ümumi idmanla bağlı fikirlərimi dedim. Nazirlə bağlı məsələyə toxunmuram. Amma bir insanı təhqir etmək doğru deyil. Əgər işində nöqsan varsa, bunu arqumentli şəkildə ortaya qoymaq lazımdır. Bir şəxsin təhqir olunması ümumiyyətlə yolverilməzdir. Əgər tənqid belə etmək istəyirlərsə, yenə də arqumentli şəkildə əsaslandırılmalıdır. Söyüş-təhqirlə məsələ həll olunmur”.

**Qol.az saytının baş redaktoru Aydın Bağırov hesab edir ki, olimpiadaya yanaşma tərzi qüsurludur:** “İdmanda idmançının milliyyəti olmur. İki idmançı meydana çıxanda biri digərinin milliyyətini düşünəcəksə, istədiyi kimi hərəkət edəcək, yəni peşəkarlıq olmayacaq. Peşəkar idmançı hər şeyi unutmalıdır. Rəsul Çunayevi qınayırlar. O həmin mərhələyə qədər rəqibindən bir döyüş artıq keçirmişdi. Özü də ağır döyüşlər olmuşdu. Olimpiya çempionunu məğlub etmişdi. Yorğunçuluqdan əlavə, o, 6 kiloqram çəki salaraq, 66 kiloqramda yarışırdı. Bu baxımdan, erməniyə məğlub olmasında təəccüblü heç nə görmürəm. Yarışlarda hər iki tərəfin bir-birilərinin üzərində qalibiyyətləri olub. Bu məsələni şişirtmək doğru deyil. Qızıl medalımızın olmaması ilə bağlı da tənqidlər var. Amma unutmayaq ki, qızıl medal qazanmaq şansımız hələ var. Əminəm ki, bu olacaq. Sərbəst güləşçilərimiz mübarizəyə başlayıblar ki, onlar daim ölkəmizə medallar gətirirlər. Boks yarışında iki idmançımız yarımfinalda, biri də 4/1-dədir. Onlardan final oyunu gözləyirik. Ən azı bundan sonra iki qızıl medal qazanacağımıza inanıram”.

**Gənclər və İdman Nazirliyinin ittihamlarla bağlı mövqeyini almağa çalışsaq da, mümkün olmadı.**

❑ **Cavanşir ABBASLI**

# İqtidarın müxalifətə minnətdarlıq ifadə etdiyi ölkədə...



**Xalid KAZIMLI**

**Öz ölkəmizdə demokratiyanın bu tezlikdə bərqərarından, azad seçki mühitinin yaradılmasından əllərini üzmüş bir xeyli adam var, gözləri ni qardaş ölkəyə - Türkiyəyə dikiblər.**

Hazırda onların başlıca arzu, istəyi odur ki, heç olmasa Türkiyədə demokratik atmosfer pisləşməsin, iqtidar komandalarının seçki yolu ilə, dinc şəkildə dəyişməsi mexanizmi pozulmasın.

Bu, qardaş ölkəyə bəslənilən kortəbii rəğbət hissindən irəli gəlmir, bu ölkənin tərəqqisini, Avropa ailəsinə inteqrasiyasını, dövlətin demokratik üsul-idarəyə keçməsini istəyənlər anlayırlar ki, dünyada, xüsusilə də bizə yaxın ölkələrdə demokratiyanın boğulması, məhdudlaşdırılması ölkəmizin də işıqlığa çıxma prosesinə mənfi təsir göstərəcək.

Bizdən olsa, Rusiya da tezliklə demokratikləşər, neo-imperiya ambisiyalarından əl çəkər, qonşularına münasibətdə “dədəlik” etmək tövründən imtina edər, özünün intəhasız ərazisinə qane olub, intensiv inkişaf yolu tutar, Avropaya, dünyaya problem yaratmaz.

Hətta bizə qarşı barışmaz düşmənçilik siyasəti yeridən Ermənistanın da demokratikləşməsinin, qanunlarla idarə olunmasının, beynəlxalq konvensiyaların tələblərinə riayət etməsinin bizə ziyanı olmaz. İran, Gürcüstan və Xəzər qonşumuz olan ölkələr də eləcə.

Nə yazıq ki, dünyanın 200-dən artıq ölkəsinin üçdə ikisi demokratik rejimlə idarə olunmur. Bəzən hansısa ölkədə məxməri inqilab baş verir, dürüst seçki keçirilir, qanuni hökumət formalaşır, amma üstündən bir-iki il keçməmiş demokratikləşmə prosesi geri təpir, ölkədə diktatura, xunta rejimi bərqərar olur.

Son 20 ildə demokratikləşən ölkələrin sayı iki əlin on barmağı qədər deyil. Əksinə, hərbi çevrilişlər törədilən, demokratik mühiti daha da pisləşən ölkələr daha çoxdur.

Bu baxımdan azərbaycanlı demokratlar qardaş ölkədə demokratik atmosferin qorunub saxlanmasını arzulayır və hesab edirlər ki, əvvəl-axır bizim ölkəmiz də azad seçki, demokratiya məsələsində Türkiyəylə ayaq uyduracaq.

15 iyul hərbi çevriliş cəhdindən əvvəl Türkiyədə demokratiyanın başı üstünü qatı qara bulud almışdısa və bu xüsusda ciddi əndişələr vardısa, hazırda narahatlıq qalmaqdadır, qara buludlar isə seyrəlməyə meyllənmiş kimi görünür.

Düzdür, Türkiyədə teokratik rejim qurmaq məqsədilə hərbi çevriliş etməyə çalışanların, onlara dəstək verənlərin, hətta onlarla yaxından-uzaqdan əlaqəsi olanların kütləvi cəzalandırılması prosesi gedir və bu, demokratik prinsiplərlə bir araya sığmır, ancaq güman olunur ki, bu, baş verən faciəvi hadisələrin doğurduğu isterika ilə bağlıdır, bir müddətdən sonra ehtiraslar ayazıyacaq və hər şeyə qanunlar çərçivəsində, humanizm prinsipləri çərçivəsində qiymət veriləcək.

Əsas odur ki, 15 iyuldan sonra hakimiyyətini qoruyub saxlamağa müvəffəq olmuş Ərdoğan iqtidarı siyasi müxalifətlə hərbi müxalifəti, eləcə də “paralel dövlət”ə məxsus qüvvələri bir-birindən ayırdı və parlament müxalifətinə qarşı öncələr tutduğu sərt davranışı korrektə etdi.

İndi mitinq və nümayişlərdə dövlətin birinci, ikinci, beşinci, onuncu adamları belə müxalifət qüvvələrinə tutduqları dövlətçilik mövqeyinə, demokratik prinsiplərə sədaqətlərinə görə minnətdarlıq ifadə edirlər.

Nazirlərin müxalifət liderləri ilə görüşməsi, onlara hesabat verməsi, suallarını cavablandırması ənənəsi 15 iyuldan əvvəl də vardı, bu tendensiya 15 iyuldan sonra da davam edir. Məsələn, dövlətin önəmli strukturlarından biri olan XİN-in rəhbəri Mövlud Çavuşoğlunun əvvəlcə ana müxalifət partiyası CHP-nin sədri Kamal Kılıçdaroğlu ilə, sonra MHP sədrinin müavinləri ilə görüşməsi, ölkənin xarici siyasətinin detalları ilə bağlı onlara bilgi verməsi özlüyündə Türkiyə iqtidarının demokratiya relsindən sapmadığının göstəricisidir.

Bir ölkədə müxalifətin rəyinə hörmət qoyulursa, onları yaranmış fürsətdən istifadə edərək damğalamırlarsa, demək, heç də hər şey itirilməyib.

Biz öz ölkəmizdə belə şey görməmişik. Hərdən “iqtidar-müxalifət dialoqu” deyə bir toplantı keçirilir, o da monoloqlardan ibarət olur. Ən ümdəsi isə o “dialoq”u boykot etmək, pisləmək, “onun əsl dialoq olmadığını” iddia etmək başlıca trend olur.

Hələlik arzumuz budur ki, Türkiyə bizim kimi olmasın, biz onun kimi olaq, ən azı onun kimi seçki keçirək.

YENİ MÜSAVAT
N 181 (6502) 18 avqust 2016



# Qulun adı

Zamin HACI
zaminhaci@gmail.com

## (Umberto Ekoya nəzirə)

**"12 gündür ki, səhər saat 6-da buraya gəlirəm. Ancaq heç bir iş tutmamışam. Tikinti də yoxdur ki, işləyək. Hara gedirəm, "iş yoxdur" deyirlər. Tikinti sahəsi də çöküb. Rayondan gəlmişəm, fəhləlik edib, ailə saxlayıram. Şəhərdə yenə arada iş olur, rayonda isə ümumiyyətlə, həyat dayanıb. Azyaşlı uşaqlarım, xəstə anam var. Aldığı məvacib heç dərman pulunu eləmir. Bakıda axtarmadığım iş yeri qalmayıb. Evə gedəndə balalarım əlimə baxır, mən də yazıq-yazıq onların üzlərinə baxıram. Çarəsizəm..."**

Bu uzun sitatı dünənki "Yeni Müsavat" qəzetindən, jurnalist Məğrur Mərdin Bakıdakı qul bazarlarından birindən reportajından götürmüşəm. Ölkədəki acınacaqlı iqtisadi durumun bir epizodudur, ancaq mənim diqqətimi tək buna görə çəkmədi. Həmin açıqlamanı verən işsiz... adının çəkilməsini istəməyib! Müxbir elə bu cür də yazmışdı. Ümumən o fotoreportajdakı işsizlərin hamısı fotolarının yaxından çəkilməsinə razı olmayıblar.

Ernesto Çe Gevaranın adına çıxılan müdrik fikirdəki kimi: "Azadlığın ən böyük düşməni öz halından məmnun kölələrdir". Ya da başqa bir aforizm, Karl Marksın sözlərini xatırlayırıq istər-istəməz: "Proletariatın zəncirdən başqa itirməyə heç nəyi yoxdur". Ancaq gördüyümüz kimi, Marks azərbaycanlı proletariatı nəzərə almayıbdır.

Bizim proletariatın və kölələrin qollarındakı, ayaqlarındakı zəncirdən başqa da itirəsi nələrisə vardır (Arvadın evdəki qızıl zənciri? Misal üçün). Əks halda, günlərdir iş tapa bilməyən adam niyə adının çəkilməsini istəmir? Bəlkə polisin qəzetdə onun adını oxuyub gəlib tutub aparacağından çəkinir? Bəlkə qürurludur, yazıq durumda qəzetdə görünməsini istəmir? Nə bilim.

Açıq deyim, mən öz xalqımın bəzi hərəkətlərini, o cümlədən hərəkətsizliyini anlamaqda çətinlik çəkirəm. O baxımdan, iqtidar nümayəndələri mənim kimiləri haqda "öz xalqından uzaq düşmüş, xarici qara qüvvələrin sifarişi ilə mentalitetimizə şər atmağa cəhd edən qüvvələr" yarlığını işlədəndə narazı qalmıram. Doğrudan uzaq düşmüşük. Əks halda acından ölən adamın adının qəzetdə çəkilməsini niyə istəmədiyini anlamalı idim.

Bir-iki fakt sayıb üstündən keçmək olardı, mən beş-on il qabaqkı reportyor təcrübəmdən bilirəm ki, bizim ölkədə qulları danışdırmaq ağaları danışdırmaqdan da çətindir. Hansısa deputatın qanunsuz villasını foto-videoya çəkmək hansısa yetimin daxmasını çəkməkdən bəlkə asandır. Deyirlər niyə çəkirsən, məqsədin nədir, müxalifət qəzetidirsə çəkmə, zəng elə telekanalizasiya gəlsin, biz uçaskovi Mamed müəllimi dəstəkləyirik, ətrafında sıx birləşirik, ümumiyyətlə, yaxşısı budur şələ-küləni yığışdırıb burdan rədd olasan və sairə.

Vallah, siz buna xırda-mırda problem kimi baxmayın, mən hər dəfə qəzetdə-filanda problemli yetimin "adının çəkilməsini istəmədiyini" görəndə dəli oluram. Təpəmdən yekə bir tüstü qalxır, asimana bülənd olur. Adamlar var, hətta intihar eləyir, ancaq istəyir bundan sonra da hökumət onun adını oxuyub haqqında pis fikirləşməsin! Bunun adına qorxaqlıq desən, düz olmaz, çünki ortalıqda xalqımızın minlərlə cəsurluq örnəkləri dolaşır. Bunu özünü qoruma instinkti adlandıra bilərsən, ancaq yuxarıdakı sitatdakı adamın durumuna baxın, bəyəm onun qorumağa nəyisə qalıbdır?

Bəs bu durumun adı nədir? Adını bilmirəm. Adını bilmədiyin şey də insan üçün ən anlaşılmaz şeylərdən biridir, çünki biz əşyanın, vəziyyətin adını qoyuruq, sonra yaddaş kartotekamızdan tapıb baxırıq. İndi isə bədbəxt qul durub qabağında, sən bunun kağızını uyğun hücrədən tapmırsan, vəziyyət də dəyişmir.

Hər kəsi, hər şeyi öz adıyla çağırmalıyıq, ancaq bu hər kəs və hər şey adıyla çağırılmağı istəmirsə, bu zaman nə edəsən? İmkan olsaydı, mən də imzasız yazmağa başlayardım - vəziyyətin içinə girib anlamaq üçün. Bəlkə adsız olanda adamda nəsə metamorfozlar, çevrilmələr baş verir.

---

**26 sentyabrda keçiriləcək referendumda təşviqat qrupu qismində iştirak etmək üçün Yeni Azərbaycan Partiyasının yaratdığı "Yeni Azərbaycan" təşəbbüs qrupu imzatoplama kampaniyasını başa çatdırıb. Bu barədə YAP icra katibinin müavini Siyavuş Novruzov məlumat verib. Onun sözlərinə görə, 40 mindən çox seçici imzası toplanıb və müvafiq sənədlər Mərkəzi Seçki Komissiyasına təqdim olunub. Mərkəzi Seçki Komissiyası həmin sənədləri qəbul edib, araşdırmalar aparır. "Yeni Azərbaycan" təşviqat qrupu kimi qeydə alınacaqsa, Seçki Məcəlləsinə uyğun addımlar atılacaq, buraya vəkillərin, məşvərətçi səs hüquqlu üzvlərin, müşahidəçilərin təyin olunması və sentyabrın 3-də başlayacaq təşviqata hazırlıq işləri daxildir. Partiyanın bununla əlaqədar proqramı hazırlanır.**

# ABŞ-la rəsmi Bakı arasında referenduma görə gərginlik

## Dövlət Departamentinin və Konqresin Helsinki Komissiyasının bəyanatlarına YAP-dan sərt cavab gəldi



**S.Novruzov onu da deyib ki, konstitusiyaya əlavə və dəyişikliklərlə bağlı referendumla bağlı təşviqat qrupu qismində iştirak etmək üçün keçirilən imzatoplama kampaniyasında müxalifətçilərə təzyiq olunması ilə bağlı iddialar tamamilə yanlışdır:** "Referendumda hansısa təşkilatın təşviqat qrupu qismində iştirak etməsi üçün 40 min imza lazımdır. Azərbaycanda 125 dairə var. İmzalar ən azı 60 dairədən toplanmalıdır, hər dairədən də 100-dən aşağı imza olmamalıdır. Bu da Azərbaycandakı seçicilərin heç 0,1 faizi demək deyil. Azərbaycanda 5 milyon seçici var, təşviqat aparmaq üçün 40 imza tələb olunur. 40 min imza toplaya bilməyən şəxs və ya təşkilat necə təşviqat apara bilər? Bəzən internetdə xəbər portallarında və ya sosial şəbəkələrdə olan yazıların oxunma sayı 100 minə çatır. Yəni adi bir məqaləyə bu qədər diqqət olduğu təqdirdə, hansısa təşkilat imza toplaya bilmirsə, bunun səbəbini icra hakimiyyətində deyil, özündə axtarsın".

Xatırladaq ki, referendumla bağlı təşəbbüs qrupu yaradan yeganə müxalifət partiyası Müsavatdır. **Müsavat Partiyasının Divan üzvü İkram İsrafil** "Yeni Müsavat"a bildirdi ki, 26 sentyabra təyin edilmiş referendumla bağlı Müsavat Partiyasının təşəbbüsü ilə yaradılmış "Respublika" təşviqat qrupunun qeydə alınması üçün imza toplanması kampaniyası əsasən başa çatıb: "Yerli təşkilatlarımız artıq 70-dən çox rayon, Bakı, Sumqayıt, Gəncə kimi şəhərlərimizdə tələb olunan 40 min imzanı toplanıb başa çatması barədə məlumat verib".

**İ.İsrafil dedi ki, YAP-çı deputatın imza toplayan müxalifətçilərə maneələr yaradılmadığı barədə açıqlamasının doğru olmadığını sübuta yetirən konkret faktlar kifayət qədərdir:** "İmza toplanması kampaniyası dövründə Cəlilabad, Masallı, Abşeron, Qazax və başqa rayonlarda, Gəncə şəhərində yerli hakimiyyət strukturları tərəfindən bu prosesə maneələr törədilib. İmza toplayanlara, onların yaxınlarına təzyiq göstərilib. İmza vərəqələri oğurlanıb.

Şəxsən mənim təhkim olunduğum Şəki-Balakən və ətraf 12 rayonun bir neçəsində yerli hakimiyyət orqanları imzatoplama prosesinə müxtəlif maneələr yaratmağa cəhd ediblər. İmza toplayanları polisə aparmaq, izləmək və s. kimi qanunazidd hərəkətlərə yol verilib.

Bütün bunlara baxmayaraq, yerli təşkilatlarımız, bu işdə bizə yardım göstərən "NİDA" Vətəndaş Hərəkatının və "D-18" Hərəkatının fəalları lazım olan ərazilərdən, lazım olan sayda imza toplamağa nail olublar.

Bugünlərdə müxtəlif rayonlardan aldığımız məlumatlara görə, yerli icra hakimiyyəti strukturları doldurulmuş imza vərəqələrini ələ keçirmək üçün müxtəlif üsullara əl atmağa başlayıb. Bu məqsədlə yerli təşkilatlarımızın nümayəndələrinə təzyiq göstərilir, dilə tutma, hədə-qorxu gəlmə və digər üsullardan istifadə edilir. Polis və yol polisi tərəfindən imza vərəqələrinin olduğu ehtimal edilən avtomobillərdə axtarış aparılır.

Müsavat Partiyası olaraq biz baş verənləri Azərbaycan Konstitusiyası və qanunlarının, o cümlədən Seçki Məcəlləsinin kobud surətdə pozulması kimi qətiyyətlə pisləyirik. Bu barədə partiyanın bəyanatı da var. Azərbaycan hakimiyyətindən və Mərkəzi Seçki Komissiyasından bu qanun pozuntularına və özbaşınalıqlara son qoyulması üçün lazımi tədbirlər görmək tələb edilir. Siyavus Novruzov ""Respublika" təşəbbüs qrupunun imza toplayanlarına təzyiqlər varsa, araşdırılıb cəzalandırılacaq" desəydi daha məqbul olardı".

**Bu arada, 26 sentyabr referendumu ilə bağlı ABŞ-dan eyni gündə iki rəsmi reaksiya gəlib. ABŞ Dövlət Departamenti sözçüsünün müavini Mark Toner bəyanat yayıb. ABŞ-ın Azərbaycandakı səfirliyinin yaydığı məlumata görə, bəyanatda qeyd olunur ki, ABŞ Azərbaycan hökumətini fundamental hüquqlardan yararlanmalarına görə həbs olunan fəalları azadlığa buraxmağa və vətəndaşların fundamental hüquqlarına hörmətlə yanaşmağa çağırır:** "Biz Azərbaycan hökumətini xüsusilə 26 sentyabr konstitusiya referendumu ərəfəsində dövlətin tutduğu istiqamətə dair açıq ictimai dialoqun inkişafına imkan yaratmağa çağırır, konstitusiya dəyişikliklərinə dair birgə rəyin alınması üçün onları Venesiya Komissiyası və ATƏT-ın Demokratik Təsisatlar və İnsan Haqları Ofisinə təqdim etməyə təşviq edirik".

ABŞ Konqresinin Helsinki Komissiyası isə açıqlama yayaraq bəyan edib ki, Azərbaycanda son günlər həyata keçirilən həbslərdən və referenduma qarşı çıxanlara təzyiqlərdən narahatdır. Helsinki Komissiyası açıqlamasında Azərbaycanda referenduma qarşı çıxanlara təzyiqlərin yolverilməz olduğunu bildirib.

Qeyd edək k, Helsinki Komissiyasının sədri Kris Smith «Azərbaycan Demokratiya Aktı»nın müəllifidir. Bu layihənin hazırlanmasında məqsəd Azərbaycan hökumətinin müstəqil jurnalistlərin, müxalifətçilərin və vətəndaş cəmiyyəti qruplarının səslərini susdurmağa yönəlik sistematik səylərə diqqət çəkməkdir.

**Azərbaycan hakimiyyətindən isə ABŞ-dan verilən bəyanata sərt reaksiya verilib. Hakim Yeni Azərbaycan Partiyasının icra katibinin müavini Siyavuş Novruzov modern.az-a deyib ki, kimsə hardasa oturub ağzına gələni, bizə məsləhət bildiyini öz ölkəsinə rəva görsə, daha yaxşı olar:** "Biz Mark Tonerin bu bəyanatını yersiz və mənasız bir addım kimi qəbul edirik. Heç nədən və kiminsə həbsi haqqında məlumatı olmayan, hər hansı hüquqi aktla tanış olmayan ABŞ Dövlət Departamenti rəsmisinin belə bir çağırış etməsi əsassız və yersizdir. Mark Toner haradan bilir ki, Natiq Cəfərli cinayət törətməyib? Mark Toner istintaqda iştirak etməyib. Proses hələ təzə başlayıb, məhkəmənin də hələ yekun hökmü yoxdur. Kimlərinsə həbsinin referendumla əlaqələndirilməsi absurddur. Azərbaycanda siyasi məhbus yoxdur, yalnız bu və ya digər şəkildə cinayət törətmiş şəxslər məsuliyyətə cəlb olunublar. Onlar əsasən vergidən yayınmaq, xuliqanlıq və digər cinayət maddələri ilə məsuliyyətə cəlb ediliblər. Onların bəziləri haqqında məhkəmə hökm çıxarıb, bəziləri haqqında isə məhkəmə qərarı hələ yoxdur, istintaq gedir. Ölkənin hüquq-mühafizə orqanları müvafiq əməliyyat istintaq tədbirləri həyata keçirir. ABŞ Dövlət Departamentinin, Mark Tonerin Azərbaycan hökumətinə, dövlətinə, istintaq və hüquq-mühafizə orqanlarına göstəriş verməsi heç bir beynəlxalq hüquq normasında yoxdur.

Onsuz da Dövlət Departamenti üçün heç bir fərqi yoxdur. Yəni kimsə hansısa müxalif bir təşkilatın və ya partiyanın üzvüdürsə və konkret olaraq cinayət əməlinə görə həbs olunursa, ABŞ mütləq həmin şəxsi siyasi məhbus adlandırır. Əlbəttə ki, belə bir addım heç bir halda düzgün deyil. Ona görə də Mark Tonerin Azərbaycana qarşı səsləndirdiyi bu kimi çağırışlar mənasız və heç bir hüquqi aspektə sığmayan bir addımdır. Onun bəyanatı havaya deyilmiş sözlərdir".

❑ Etibar SEYİDAĞA



# Rusiya Xəzəri "qanlı göl"ə çevirə bilər-təhlükə

**Rusiya prezidenti Vladimir Putinin Azərbaycana, Azərbaycanın müdafiə naziri Zakir Həsənovun isə Moskvaya səfərlərindən sonra Rusiya müdafiə naziri Sergey Şoyqunun Bakıya gəlişi ətrafında müzakirələr kəsilmək bilmir.**

## Uzun illər "sülh dənizi" olmuş Xəzər regionunda hərarət artır, ABŞ karbohidrogen ehtiyatları ilə zəngin bölgəni güzəştə gedəcəkmi?

Virtualaz.org xəbər verir ki, rusiyalı nazirin əsas məqsədlərindən biri Xəzərdən Suriyaya zərbə endirmək üçün platsdarmın yaradılması olub. "Komsomolskaya pravda" qəzetinin məlumatına əsasən, Sergey Şoyqunun müdafiə naziri Zakir Həsənovla danışıqlarında Moskva və Bakının Xəzərdə birgə hərbi fəaliyyəti barədə söhbət gedib. Bildirilir ki, birgə fəaliyyətlə bağlı bütün məsələləri yerindəcə razılaşdırmaq üçün Şoyqu özü ilə birlikdə mütəxəssisləri də gətiribmiş. Bu birgə fəaliyyətin mahiyyətinin nədən ibarət olacağı barədə heç nə deyilmir. Lakin məlumdur ki, Rusiya Hələb şəhərinin terrorçulardan və müxalif qruplardan təmizlənməsi üçün həlledici, eyni zamanda irimiqyaslı əməliyyata hazırlaşır. Və bu əməliyyatda Xəzər dənizindən də istifadə edəcək. Saytın yazdığına görə, hazırda Rusiyanın Xəzər donanması döyüş şəraitinə maksimal yaxınlaşdırılmış hərbi təlimlər keçirir. "Nezavisimaya qazeta" yazır ki, təlimlərə "Kalibr" qanadlı raketlərlə silahlanmış hərbi gəmilər də qatılıb. "Warfare Worldwide" bloqunda yer alan digər məlumatda isə deyilir ki, Rusiyanın Hələbdən ABŞ-ın dolayısıyla dəstəklədiyi "Əl-Nüsra Cəbhəsi"ni (indi adı "Ceyş əl-Şam"dır) və digər müxalif qrupları vurub çıxarmaq üçün eyni zamanda Xəzər dənizindən də zərbələr endirəcəyi gözlənilir.

Xəzər dənizi tarixən "sülh dənizi" olub. Ancaq son illərdə Xəzərdəki hərbiləşmə, davamlı hərbi təlimlərin keçirilməsi, üstəlik, Qərbin Xəzər regionuna diqqətinin artması və nəhayət, Suriya böhranı ilə əlaqədar cərəyan edən proseslər dənizin "qan gölü"nə çevrilməsi qorxusunu yaradır. Son günlər Suriyadakı İŞİD-çi qüvvələrin tam məhv edilməsi istiqamətində hərəkətlilik müşahidə olunur və görünən budur ki, Rusiya bununla bağlı mövqeyində qətidir. Ancaq bölgədə maraqları olan ABŞ-ın Rusiyanın Xəzərlə bağlı planlarına hansı reaksiyanı verəcəyi də maraq doğurur. Düzdür, bir sıra hallarda ABŞ-ın və ümumən Qərbin Cənubi Qafqaz bölgəsini Rusiyaya güzəştə getdiyinə dair iddialar da tirajlanır. Ancaq Azərbaycanın Avropa və Asiya arasında əvəzolunmaz dəhliz rolunu oynaması, Xəzərdəki enerji ehtiyatları və sair amilləri nəzərə aldıqda, demək olar ki, Azərbaycan və Xəzər Qərb üçün vazkeçilməz bölgədir.

**"Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Ərəstun Oruclu bu mövzuda "Yeni Müsavat"a danışarkən öncə bildirdi ki, Qərbin bölgəni hansısa dövlətə güzəştə getdiyi barədə yanaşmaları düzgün hesab etmir:** "Real siyasət adından bəlli olduğu kimi, siyasi, geosiyasi, ictimai-siyasi və sair reallıqlara söykənir. Onu xatırladım ki, hələ xeyli illər əvvəl Xəzər-Qara dəniz bölgəsi ABŞ-ın və Qərbin strateji, enerji və iqtisadi maraq dairəsində idi. Bu gün gündəmdə duran çox mühüm məsələlərdən biri də məlum Şərq-Qərb nəqliyyat-kommunikasiya dəhlizinin işə salınmasıdır. Yeni Avropa ilə Çin arasında ticari əlaqələrin, yükdaşımaların və s. həyata keçirilməsindən söhbət gedir. Eyni zamanda da Şimal-Cənub dəhlizi məfhumu var ki, o da Azərbaycandan keçir. Ona görə mən düşünmürəm ki, Azərbaycan burada kimin üçünsə bir mübadilə predmeti ola bilər. Təbii ki, maraqlar var və o maraqlar uğrunda da ən müxtəlif formada mübarizə gedir".

**Ə.Orucluya görə, Rusiya çalışır ki, bu gün bölgədə yaranmış vəziyyətdən istifadə edərək Azərbaycanı öz tərəfinə çəksin:** "Bunu ABŞ-la münasibətləri korlanan Ərdoğan hökuməti ilə də etməyə çalışır. Hətta belə bir görüntü yaratmağa çalışır ki, guya Türkiyə, Rusiya, Azərbaycan və İran anti-Amerika, anti-Qərb ittifaqı yaratmağı planlaşdırır. Mən düşünmürəm ki, bu, belədir və hər şey bu dərəcədə sadədir. Birincisi, biz Azərbaycanı kənara qoyaq, biz kiçik dövlətik, belə layihələrdə çox da fəal və böyük söz çəkisi ilə iştirak edə bilmərik. Digər 3 dövlətin - İran, Türkiyə və Rusiyanın o qədər toqquşan marağı var ki, həmin toqquşan, bir-birinə zidd olan maraqlar müştərək maraqlardan daha çoxdur. Bundan savayı, hər bir dövlətin öz marağı var. Hər üçü kifayət qədər güclü, təcrübəsi olan dövlətlərdir. Onların asanlıqla ortaq məxrəcə gəlib guya Qərbə qarşı birləşəcəyi inandırıcı deyil. Təbii ki, bu görüntünü yaradanlar çalışır ki, Azərbaycanı da ora qoşsunlar". **Politoloq şübhə etmir ki, Rusiyadan Azərbaycana olan intensiv səfərlər də bu görüntünü yaratmağa hesablanıb:** "Real olaraq həm də Bakını öz tərəfinə çəkməyə, Qərbdən uzaqlaşdırmağa hesablanıb. Amma mən düşünmürəm ki, Azərbaycan hakimiyyəti bu qədər çətin dönəmdə, mürəkkəb geostrateji şəraitdə tərəf tutacaq dərəcədə sadəlövhdür. Hesab edirəm ki, bu gün yalnız görüntülər yaradıla bilər. Azərbaycan hökuməti tərəfindən də bir görüntülər yaradılıb ki, guya kiməsə rəğbət daha çoxdur, kiməsə azdır. Reallıq isə tamamilə fərqlidir. Reallıq ondan ibarətdir ki, son nəticədə ortaq bir məxrəc tapılacaq və böyük güclər öz arasında anlaşacaqlar. O cümlədən Rusiya ilə Qərb, ABŞ və Avropa. Elə Xəzərin statusu, nəqliyyat dəhlizləri məsələsində də anlaşacaqlar. Fikrimcə, burada ən böyük yanlışlıq tərəf tutmaq olardı".

**Ə.Oruclu hesab edir ki, Rusiyadan Azərbaycana həyata keçirilən ardıcıl səfərlərin arxasında daxili siyasi maraqların toqquşması da var:** "Bilirsiniz ki, Rusiya hökumətinin hərbi qanadını təmsil edən Sergey İvanovun Prezident Administrasiyasının rəhbəri vəzifəsindən kənarlaşdırılmasından sonra Rusiyadaxili hakimiyyət qanadları arasında balans pozulmağa başlayıb. Təbii ki, hər iki qanad, həm də Rusiyanın ətrafındakı postsovet dövlətlərinə nüfuzunu artırmaq hesabına xal qazanmağa çalışır. Ona görə təsadüfi deyil ki, məhz prezident Putinin ardınca Bakıya Şoyqunun səfəri oldu. O cümlədən Rusiyanın müxtəlif hakimiyyət qanadlarına yaxın şəxslər, məsələn, Jirinovski və digərlərinin antiermeni bəyanatlarını gördük. Bunların hamısı ətraf dövlətlər hesabına o iki qanadın güclənməsi məqsədini də qarşısına qoyur".

**Konfliktoloq Elxan Mehdiyev isə Rusiyanın Xəzərdən Suriyaya qarşı istifadə edəcəyi ehtimalını bölüşmür. Onun fikrincə, əvvəlki vaxtlar olsaydı, o zaman rus donanması üçün Xəzərdən Suriyadakı terrorçulara hədəfə almaq ehtiyacı yaranardı. Hazırda isə Rusiyanın bazaları Aralıq dənizi sahillərindədir, İran ərazisindən istifadə edilir, üstəlik, bəlkə elə İncirlik hərbi bazasından istifadə də razılaşdırıldı. E.Mehdiyev ABŞ-ın Xəzər bölgəsində mövcudluğunu istisna edir:** "Faktiki olaraq Xəzər Rusiyanın gölüdür. Rusiya-İran müharibəsindən bəri burada faktiki olaraq Rusiyanın dominantlığı hökm sürür. SSRİ-nin parçalanmasından sonra İran çox kiçik sayda donanma saxlayır, o da sahil sularının mühafizəsi üçün. Amerikanın burada nə işi var? Eyni zamanda Rusiya və İranın mövqeyi budur ki, üçüncü heç bir ölkə Xəzərə gəlməyəcək. Türkmənistan, Qazaxıstan və Azərbaycan da buna razıdır". **E.Mehdiyev yaxın zamanlarda Xəzərin statusu barədə razılaşmanın əldə olunacağına inanır:** "Rusiya XİN başçısı Sergey Lavrov da dedi ki, bütün məsələlər həll olunub. Digər Xəzəryanı ölkələr arasında problem yoxdur. Sadəcə, İran və Türkmənistanla yataqlar üzərində olan mübahisələr var, yəqin o da həllini tapacaq".

❑ **Elşad PAŞASOY**

# Türkiyədəki çevrilişdən ötən bir ay nə göstərdi?



**Hüseynbala SƏLİMOV**

**Qızmar, adamı lap əldən-taqətdən salan yayın hərarəti hər şeyə bir lənglik gətirsə də, zaman öz işindədir. Adam heç inana da bilmir ki, Türkiyədəki hərbi çevriliş cəhdindən artıq bir ay keçib. Ona görə də "Bu bir ayın qəhrəmanı Türkiyə oldu" - desək, elə də ifrata varmarıq...**

Bizim Azərbaycan insanları bu ölkədəki proseslərə qeyri-adi bir dərəcədə artıq maraq göstərdi. Bu maraq o qədər böyük idi ki, adamın onun ondan birinin Azərbaycandakı proseslərə qarşı olmasını da arzulamaqdan savayı çarəsi qalmadı...

Bu günlərdə bir daha belə bir qənaətə gəlmək məcburiyyətində qaldıq azərbaycanlıların böyük hissəsi sadəcə, Azərbaycanda yaşayırlar. İnanın, Bakıda yaşan azərbaycanlının ölkəsindəki proseslərə marağı heç də Moskvada yaşayan və artıq Rusiya vətəndaşı olmuş bir azərbaycanlının Azərbaycanda cərəyan edən proseslərə marağından artıq deyildir...

Elə bu səbəbdən də Türkiyədəki proseslərə maraq mənə bir o qədər də səmimi görünmədi - seyr etməkdə mahirik.... Elə Türkiyə siyasətçilərinin də (müxalifət də daxil olmaqla) səmimiyyəti məni heç də qane etmədi...

Türkiyədə son bir ayda cərəyan edən proseslər mənim üçün daha çox o demək oldu ki, onsuz da güclü olan R.T.Ərdoğanın hakimiyyəti bir qədər də gücləndi. Təbii ki, bunun bizə elə bir isti-soyuğu yoxdur. R.T.Ərdoğanın hakimiyyəti Türkiyənin legitim hakimiyyətidir və onun bir az da güclənməsi artıq həmin hakimiyyətin opponentlərinin qayğısıdır...

Mən Türkiyə hökuməti ilə lap əvvəldən bir məsələdə razı olmuşam. O da budur ki, bu ölkədə müəyyən hərbi-siyasi islahatlar zəruridir. Təbii ki, az qala, hər on ildən bir baş verən hərbi çevrilişlər də yaxşı şey deyildir. Avropa Birliyinə can atan, NATO üzvü olan ölkə üçün bu, bir o qədər də təqdir olunan hal deyil və hətta bir anomaliyadır...

Digər məsələlərə gəldikdə isə, onlar xeyli mübahisəlidir. Doğrusu, bu müddət ərzində Türkiyədən Avropaya və ABŞ - a tuşlanan ittiham selini qətiyyən təqdir etmirəm. Demirəm ki, avropalı və amerikalı siyasətçilər tamam mələkdirlər. Belə deyil... Amma düşünürəm ki, dövlət başçısının və hətta böyük siyasətdə olan adamın ritorikasının, çıxışlarının bir hüdudu olmalıdır. Elə bir sərhəd olur ki, bundan o tərəfə artıq ölkə üçün problemlər başlayır.

Təəssüf ki, prezident R.T.Ərdoğan bu sərhədi qətiyyən gözləmir. Mənə belə gəlir ki, əslində o, nə dediyinin və nə istədiyinin çox yaxşıca fərqindədir, sadəcə, bütün vasitələrlə Türkiyəni öz bildiyi istiqamətə sürükləyir... Bu istiqamət nə olacaq və o, özündə Türkiyə və türklər üçün nə ehtiva edir, - bunu indi yalnız təxmin etmək olar...

Təbii ki, Türkiyəyə böyük maraq və diqqət göstəririk - bunu əvvəldə dedim. Di gəl, cəmiyyət kimi bunun qarşılığını görmürük. Bəli, Türkiyə bizim ən əsas problemimizə - Qarabağ probleminə çox diqqətlidir. Bəli, Türkiyə Azərbaycanla münasibətlərə böyük önəm verir. Amma bu, daha çox Azərbaycan hakimiyyəti ilə qurulan münasibətlərdir...

Türkiyə Azərbaycan cəmiyyəti, onun azadlıqsevər kəsimi, ictimai-siyasi fəalları haqqında qətiyyən düşünmür...

Azərbaycan hökumətinin siyasi iştahası son vaxtlarda demək olar ki, sərhəd bilmir. Düşünürəm ki, bunu xırdalamağa elə bir zərurət yoxdur. Hər bir orta statistik azərbaycanlı siyasi proseslərə ona görə etinasız və biganə deyil ki, bu proseslərdən tamam məlumatsızdır, yox, o, sadəcə, özünə əziyyət vermək istəmir və bunu onunla "əsaslandırır" ki, onsuz da heç nəyi dəyişmək və proseslərə başqa səmt vermək mümkün deyildir. Amma mən bunun da səmimiliyinə böyük şübhə ilə yanaşıram. Ən azı ona görə ki, cəmiyyətimiz vəziyyəti düzəltmək üçün bu illər ərzində hiss olunacaq cəhd göstərmədi...

Fəqət, sözüm Türkiyə haqda idi... Belə fikirlər var ki, Türkiyə bizim hökumətə azacıq soyuq yanaşsa və onun daxili siyasətini azca korrekto etmək istəsə, o halda rəsmi Bakı Rusiyaya daha çox sığınacaq.

Biz bu qənaəti heç də tamam bölüşmürük. Düzdür, belə bir siyasi dreyfin ola biləcəyini elə biz də istisna etmirik. Amma balanslaşdırılmış siyasət təkcə ölkənin müstəqilliyinin təminatı kimi təzahür etmir. Belə siyasət hökumətin də müstəqilliyini artırır - bizim hakimiyyət həm də ölkənin yeganə ağası olmaq istəyir... Ona görə də Rusiyanı hansısa ölkə ilə balanslaşdırmaq hökumətin də maraqlarına da cavab verir. Regionda bu rola ən yararlı ölkə isə Türkiyədir...

Təbii ki, tək Türkiyənin deyil, digər demokratik ölkələrin də xarici siyasət vektoru ilə demokratiya vektoru heç də həmişə üst-üstə düşmür.

Amma digər ölkələr bir az formal şəkildə olsa da, Azərbaycanı demokratik səmtə yönəltməyə cəhd edirlər. Türkiyədənsə qətiyyən belə cəhdi görmürük...

Bunun bir səbəbi də odur ki, Ərdoğan hakimiyyətinin özünün demokratiya münasibəti heç də Avropa ölkələrinki qədər deyildir və bir çox hallarda qaranlıqdır. Elə bu səbəbdən də bir çox məsələlərin sadə və izaholunan cavabı vardır. Hətta bu izahlar könlümüzü açmasa belə...

YENİ MÜSAVAT
N 181 (6502) 18 avqust 2016

**Avqustun 17-də "Beynəlxalq Bank işi"nə görə həbs edilənlərin cinayət işi üzrə məhkəmə prosesi keçirilib.**
**Təqsirləndirilən şəxslər "Azərbaycan Beynəlxalq Bankı"nın (ABB) keçmiş sədri Cahangir Hacıyev, Beynəlxalq Bankın Mərkəzi filialının direktorları olmuş İlqar Abdullayev və Yusif Ələkbərov, bankın inzibati binalarının mühafizəsini həyata keçirən "İnter Security" MMC-nin baş direktoru İbrahim Hüseynov və digərləridir.**



# Həbsdəki bankir maliyyə nazirini yanında görmək istəyir

## Cahangir Hacıyev: "Samir Şərifov burada, mənim yanımda əyləşməlidir, bunu sübut edən faktlarım var"

Təqsirləndirilən şəxslərin cinayət işi üzrə məhkəmə prosesi Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilir.

Məhkəmə prosesində C.Hacıyevin vəkilləri Aqil Layıcov və Fəxrəddin Mehdiyev vəsatətlər veriblər.

Vəkil A.Layıcov ilk çıxışında bildirib ki, cinayət işində iki zərərçəkmiş tərəf tanınıb. Onlardan birinin ABB, digərinin isə "Aqrarkredit" QSC olduğunu deyən vəkil bu halın yolverilməz olduğunu bildirib.

Vəkil 2015-ci ilin əvvəlində bankın problemli kreditlərinin ayrılaraq idarə etmək üçün QSC-yə verildiyini və bu səbəbdən də ABB-nin zərərçəkmiş tərəf kimi tanınmasının mümkünsüz olduğunu söyləyib.

**Vəkilinin vəsatətinə münasibət bildirən C.Hacıyev bunları deyib:** "Mən hüquqşünas deyiləm. Ancaq məntiqlə baxanda burada bir zərərçəkmiş olmalıdır. Mən bu işə təəccüblə baxıram. Vəkilimin vəsatətinin təmin edilməsini istəyirəm".

Dövlət ittihamçısı Fərid Nağıyev qaldırılmış vəsatətə münasibət bildirərkən qeyd edib ki, ittiham aktında ABB və "Aqrarkredit" QSC zərərçəkmiş tərəf kimi tanınıb. Prokuror səsləndirilən fikirlərin əsassız olduğunu və ittiham aktında bunu sübut edən faktların olduğunu əlavə edib.

Prosesdə ABB-nin nümayəndələri məhkəməyə mülki iddia ilə müraciət ediblər. Mülki iddia icraata götürülüb və məhkəmə baxışında baxılması üçün qərar qəbul edilib.

C.Hacıyevin vəkilləri hüquqlarını müdafiə etdikləri şəxsin cinayət işinə xitam verilməsi, şüşə qəfəsdən çıxarılıb müdafiəçilərinin yanında əyləşməsi, həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz edilməsi, maliyyə naziri Samir Şərifovun şahid qismində məhkəmədə ifadə verməsi ilə bağlı da vəsatətlər qaldırıblar.

**Vəkil Fəxrəddin Mehdiyev çıxışında bildirib ki, hüquqlarını müdafiə etdiyi şəxsə qarşı irəli sürülən ittihamlar əsassızdır:** "Bankdan götürüldüyü deyilən kredit resursları müəyyən layihələrin həyata keçirilməsinə xərclənib. Fiziki şəxslərə verilən kreditlərin 2/3 hissəsi ödənilib. Qalan hissəsi isə ödəmə müddəti olan kreditlərdir. Həmin kreditlərin ödənilməsi üçün vaxt olub. Ancaq sonradan burada əyləşən şəxslərə qarşı cinayət işi açılıb. Bundan sonra kreditlərin ödənilməsi dayanıb. Burada hansı mənimsəmədən söhbət gedə bilər? Müvəkkilim 38 gün qanunsuz olaraq "Bandotdel"də saxlanılıb. Həmin müddətdə istintaq qanunsuz olaraq aparılıb. Bacısı və həyat yoldaşı həmin müddətdə təzyiqlərə məruz qalıblar. Açılan cinayət işi mifdir və heç bir real əsası yoxdur. Bu işdə, sadəcə, olaraq Mərkəzi Bankın kredit verilməsi ilə bağlı təlimatlarının pozulmasından söhbət gedə bilər. Bu isə mülki işdir və cinayət işi sayıla bilməz".

**C.Hacıyevin digər vəkili A.Layıcov çıxışa əlavə olaraq qeyd edib ki, müvəkkilinin həbsi ilə bağlı Avropa Məhkəməsinə müraciət edilib:** "Cahangir Hacıyevin həbsi qanunsuzdur".

**Təqsirləndirilənlərdən İlqar Abdullayevin vəkili çıxışında bildirib ki, müdafiə etdiyi şəxsin həbsdə saxlanılmasını qanunsuz hesab edir:** "Cinayət işi ilə tanış olarkən gördüm ki, ortaya saxta və qondarma faktlar qoyulub. İlqar Abdullayevə qarşı uydurulmuş kifayət qədər faktlar və sübutlar var. Əgər obyektiv araşdırma aparılarsa, dediklərim öz əksini tapar".

Vəkil müdafiə etdiyi şəxs barəsində cinayət işinə xitam verilməsi ilə bağlı da vəsatət qaldırıb.

Cahangir Hacıyevin və İlqar Abdullayevin vəkillərinin qaldırdığı vəsatətlərə münasibət bildirən bütün vəkillər və təqsirləndirilən şəxslər razılıqlarını bildiriblər. Onlar vəsatətlərin təmin edilməsini istəyiblər. Yalnız "Aqrarkredit" QSC-nin nümayəndələri vəsatətlərin təmin edilməsini məhkəmənin səlahiyyətinə buraxdıqlarını deyiblər.

**Qaldırılmış vəsatətlərə münasibət bildirmək sırası C.Hacıyevə çatıb.**

**O, vəsatətlərin təmin edilməsini istəyib və əlavə olaraq çıxışı edib:** "Cinayət işi açılanda ölkədə deyildim, xaricdə müalicə olunurdum. Bir zəngə ölkəyə qayıtdım. Nə vaxt istintaqa dəvət edilmişəmsə, özüm getmişəm. 11 dəfə istintaqa ifadə vermişəm. Dekabrın 4-də mənim barəmdə həbs qərarı çıxarıldı. 38 gün "Bandotdel"də qanunsuz olaraq saxlanılmışam. Əgər mənim bir günahım olsa idi vətənə qayıtmazdım. Yanımda əyləşən və digər təqsirləndirilən şəxslərlə birlikdə çalışmışıq. Gördüyümüz işdə də heç bir problem olmayıb. İstintaq qeyri-peşəkar və qərəzli aparılıb. 49 fiziki şəxsə kredit verilməsi ilə bağlı ittiham aktında məlumat yer alır. Kreditlərin hansı trayektoriya üzrə ayrılması, necə ödənilməsi ilə bağlı sənədlər bizim tərəfimizdən təqdim edilib. Bu işdə mənimsəmə olduğu deyilir. Ancaq pulu götürən şəxslərin heç biri pulu mənə və ya digər təqsirləndirilən şəxslərə verdiyini demir. Burada mənimsəmə hardadır?

Beynəlxalq Bankın Audit Komissiyasının üzvləri Maliyyə Nazirliyinin işçiləri idi. Onlar bankda oturub bütün qərarlara qol çəkirdi. Audit Komissiyasında, Maliyyə Şurasında, Beynəlxalq Bankın İdarə Heyətində olan şəxslərlə bağlı heç bir hal ittiham aktında qeyd edilməyib. Bunlar mütləq araşdırılmalıdır".

**Maliyyə naziri Samir Şərifovun da bu işə cəlb edilməsini istəyən C.Hacıyev bunları əlavə edib:** "Samir Şərifov özü bu işə cəlb olunmalı və ifadə verməlidir. Hətta özü burada, mənim yanımda əyləşməlidir. Bunu sübut edən faktlarım var. Bəzi kreditlərin ödənilmədiyi deyilir. Lakin həmin kreditlərin ödəniş vaxtı başa çatmamışdı. İndi hamının krediti var. Ölkədə 2 milyon insanın kredit borcu olduğu bilinir. Onda bank sistemini ləğv edib, kredit verənləri tutmaq lazımdır".



**Prokuror:** "Cahangir Hacıyev həbs ediləcəyini düşünmürdü"

**Dövlət ittihamçısı qaldırılmış vəsatətlərə münasibət bildirib.**

**O qeyd edib ki, cinayət işinə xitam verilməsi mümükünsüzdür. Sübutları araşdırmağa ehtiyac var:** "Sübutlar araşdırılmadan fikir səsləndirmək doğru deyil".

**Prokuror bankdan müxtəlif layihələrin həyata keçirilməsi üçün vəsaitin ayrılması və fiziki şəxslərə kreditlərin ayrılması ilə bağlı deyilənlərə də münasibət bildirib:** "Vəkillər qeyd edir ki, müxtəlif layihələrin həyata keçirilməsi üçün bankdan pul ayrılıb. Ancaq bunu sübut edən sənədlər istintaqa təqdim edilməyib. Ayrı-ayrı şəxslərin adına kredit verilib. Onların bu məbləği ödəmək imkanları araşdırılmayıb".

Prokuror ABB-dən adlarına kredit götürülən şəxslərin bir neçəsinin adını sadalayıb və onların kreditlərini gecikdirməsi ilə yaranan borcların məbləğini açıqlayıb.

**Dövlət ittihamçısı vəkillərin C.Hacıyevin qanunsuz olaraq saxlanılması ilə bağlı məhkəmə qərarı olmasına da toxunub. Prokuror bildirib ki, C.Hacıyevin 2015-ci ilin 8-18 yanvar tarixlərində qanunsuz həbsdə saxlanılması ilə bağlı məhkəmə qərarı olsa da, qeyd edilən müddət ərzində istintaq hərəkətləri aparılmayıb.**

**Prokuror çıxışının davamında bunları deyib:** "Vəkillərin qeyd etdiyi kimi, təkcə bankdan kreditlərin verilməsi ilə bağlı Mərkəzi Bankın təlimatları pozulmayıb, həmçinin ayrı-ayrı şəxslərin adına müxtəlif məbləğlərdə pul verilib. Bunu sübut edən faktlar ittiham aktında yer alır. Məhkəmə baxışında bunlara diqqət çəkiləcək".

**C.Hacıyevin ev dustaqlığına buraxılması ilə bağlı qaldırılan vəsatətə də münasibət bildirən prokuror bu vəsatətin də təmin olunmamasını istəyib və bunu belə əsaslandırıb:** "Cahangir Hacıyevin ölkədən çıxmasına "stop" qoyulub. Amma onun ev dustaqlığına buraxıldığı zaman qanunsuz olaraq ölkədən çıxması halı istisna edilmir. İstintaqdan qaçıb gizlənmək ehtimalı var. Həmçinin ev dustaqlığına buraxılacağı halda şahidlərə və ifadə verməli olan digər şəxslərə təsir etmək imkanı da olacaq. Cahangir Hayıyev öz istəyi ilə Azərbaycana qayıtdığını deyir. Qeyd edim ki, o əvvəlcə şahid qismində istintaqa ifadə verib. Cahangir Hacıyev bəlkə də həbs ediləcəyini düşünmürdü".

**Təqsirləndirilən şəxslərin şüşə qəfəs arxasından çıxarılması və vəkillərinin yanında əyləşdirilməsi ilə bağlı vəsatətlərin də təmin edilməməsini istəyən dövlət ittihamçısı əlavə edib ki, əgər vəkillər müvəkkilləri ilə məsləhətləşmək istəyirsə, onlara fasilə zamanı və ya prosesdən əvvəl şərait yaradıla bilər:** "Vəkillər təqsirləndirilən şəxslərin ziyalı olduğunu və şüşə qəfəs arxasından çıxarılmasını istəyir. Ancaq bu, təqsirləndirilən şəxslərin bərabərlik hüququnun pozulmasıdır".

**Maliyyə naziri Samir Şərifovun məhkəməyə gətirilməsi ilə bağlı qaldırılan vəsatətə münasibətində isə dövlət ittihamçısı bildirib ki, maliyyə nazirinin hansısa bir əməli törətməsini sübut edən fakt yoxdur.**

"İş məhkəmə baxışına verildikdən sonra Samir Şərifovun hansısa bir qanunsuz əməl törətməsi məlum olarsa, prosesin davamında vəkillər vəsatət qaldıra bilər. Buna da etiraz edilməz" deyə, prokuror bildirib.

Dövlət ittihamçısı işin məhkəmə baxışına göndərilmsini istəyib.

Məhkəmə sədri prosesdə fasilə elan edib. Müşavirədən qayıdan məhkəmə heyəti qaldırılan vəsatətlərlə bağlı qəbul edilən qərarı elan edib. Hakim Əfqan Hacıyev bildirib ki, vəsatətlərin heç biri təmin edilməyib və iş məhkəmə baxışına verilib.

**Məhkəmə baxışı avqustun 24-nə təyin edilib.**

**Onu da əlavə edək ki, C.Hacıyev ləğv edilmiş MTN-in rəhbəri olmuş Eldar Mahmudovun qudasıdır.**

❑ **İlkin MURADOV**

## Daha iki bank müflis elan olundu

**Azərbaycan Əmanətlərin Sığortalanması Fondu (ADİF) daha iki bankın müflis elan olunduğunu bəyan edib.**

Modern.az xəbər verir ki, fondun məlumatına görə, Azərbaycan Respublikası 1 Saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin 16.08.2016-cı il tarixli 2-1(81)-1594/2016 saylı Qərardadı ilə "Qafqaz İnkişaf Bankı" ASC və"Atrabank" ASC müflis elan olunub.

Əmanətlərin Sığortalanması Fondu 16.08.2016-cı il tarixdən qeyd edilən bankların ləğvedicisi kimi fəaliyyətə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Rusiya Qarabağ problemini çözməyə hazırdırmı? - ekspert rəyləri

## Moskvadan regiona intensivləşən rəsmi səfərlər, güc strukturları yetkililərinin qarşılıqlı ziyarətləri nə vəd edir?

## **Hərbi ekspert:** "Qarabağ məsələsi çözülənədək Azərbaycan bahalı silahlar almaqda davam edəcək..."

**Bu günlər Rusiya ilə Azərbaycan arasında hərbi əməkdaşlıq və silah ticarəti mövzusu yenidən siyasi gündəmin ön hissəsinə çıxdı. Növbəti dəfə Ermənistanda Azərbaycanın guya sürətlə silahlanması, Moskvanın isə bu yöndə Ermənistanı unudub ölkəmizi silah-sursatla təmin eləməsi ətrafında hay-küy qaldırıldı. Hətta işğalçı ölkədə Kremlin Azərbaycanı Ermənistana qarşı yeni müharibəyə hazırladığı haqda iddialar səsləndi.**



Lakin Rusiya tərəfdən rəsmilər səviyyəsində verilən bəyanatlardan aydın oldu ki, rəsmi Moskva İrəvanda nə düşünüldüyündən asılı olmayaraq, Bakı ilə hərbi və hərbi-texniki sahədə əməkdaşlığı dayandırmaq niyyətində deyil. Rusiyanın ATƏT-in Minsk Qrupunun üç həmsədrindən biri olması və son vaxtlar yeni Qarabağ təşəbbüskarlığı ilə çıxış eləməsi isə silah mövzusuna ikiqat aktuallıq verir.

Bəs Rusiya ilə hərbi-texniki sahədə əməkdaşlığımızın perspektivi nə vəd edir, bu əməkdaşlıq hara kimi davam edə, Rusiya hansı məqamadək bizim əsas silah aldığımız ölkələrdən biri ola bilər?

*****

"Azərbaycan Rusiya ilə həm iqtisadi, həm də siyasi sahədə həmişə sıx əlaqələrə malik olub. Son illər hərbi sahədə də bizim uğurlu əməkdaşlığımız yaranıb. Azərbaycan Rusiyanın bu sahə üzrə üzərinə götürdüyü bütün öhdəlikləri vicdanla yerinə yetirən tərəfdaşlarından biridir". Bunu "Vestnik Kavkaza" nəşrinə açıqlamasında azərbaycanlı **hərbi ekspert Üzeyir Cəfərov** deyib.

"Bugünlərdə Rusiya prezidenti Ermənistan prezidenti Serj Sərkisyanla görüşdə xüsusi qeyd elədi ki, Azərbaycan neft ölkəsidir, zəngin qızıl-valyuta ehtiyatlarına malik ölkədir və o, istədiyi silahı, hərbi texnikanı istədiyi ölkədən almaq haqqına sahibdir. Bununla da Rusiya prezidenti erməni tərəfinə xatırlatdı ki, Ermənistan Rusiyanın Azərbaycana silah satması əleyhinə olsa da, Bakı İrəvandan fərqli olaraq silah-sursatı öz halal puluna alır" - ekspert daha sonra vurğulayıb.

**Hərbi analitik Azərbaycanın Rusiyadan silah tədarük etməsini isə belə əsaslandırıb:** "Azərbaycan silah və hərbi texnikaya milyardları xoş günündən xərcləmir. Əgər bizim torpaqlarımız Ermənistanın işğalı altında olmasaydı, bu vəsaitləri rahatca səhiyyəyə, təhsilə, sosial ehtiyaclara yönəltmək olardı. Ancaq Qarabağ məsələsi həll edilmədikcə Azərbaycan bahalı silahlar almağa məcburdur. Biz "S-300" zenit-raket komplekslərini, artilleriya qurğularını, mərmiləri, "T-90" tanklarını təkcə Rusiyadan deyil, başqa ölkələrdən almışıq".

**Rusiya müdafiə naziri Sergey Şoyqunun son Bakı səfərinə toxunan ekspert bildirib:** "Bir neçə gün öncə müdafiə naziri Sergey Şoyqu Bakıda oldu, həm Azərbaycan prezidenti, həm də müdafiə naziri ilə danışıqlar apardı və mənim bildiyim qədər, Azərbaycan yaxın zamanlarda Rusiyadan daha böyük həcmdə silah və hərbi texnika almaq niyyətindədir. Bu, normal əlaqələrdir. Ancaq Azərbaycanın Minsk Qrupunun həmsədr ölkəsi kimi Rusiyadan yeganə xahişi odur ki, Moskva sülh fəaliyyətini gücləndirsin və Ermənistanı beynəlxalq norma və qaydalara əməl eləməyə məcbur etdin. Rusiya BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biri kimi İrəvana təsir imkanlarına malikdir".

**Ekspert Qarabağ probleminin Rusiya-Azərbaycan əlaqələrinin inkişafına əngəl yaratdığını da qeyd edib:** "Rusiya ilə bizim həmişə sıx dostluq əlaqələrimiz olub, ancaq Dağlıq Qarabağ konfliktinin həll olunmamış qalması əməkdaşlığı bir qədər tormozlayır. Əgər bu problem aradan qalxsa, o zaman ikitərəfli əlaqələr SSRİ-nin çöküşünədək olan səviyyədən də sıx və geniş olacaq. Yada salım ki, sovetlər dönəmində bizim əlaqələrimiz yaxşı olub. O zaman Azərbaycan hərbi qulluqçuları Rusiya ali məktəblərində təhsil alırdılar, Azərbaycanda olan rusiyalı hərbi qulluqçular özlərini evdəki kimi hiss edir, azərbaycanlıları qonaqpərvər xalq hesab edirdilər".

*****

**"Azərbaycan və Rusiya arasında rəsmi səfərlər Qarabağ münaqişəsinin müsbət həllinə təkan yaradacaq". Bunu isə SalamNews-a açıqlamasında son vaxtlar iki ölkə arasında yüksək çinli rəsmilərin intensivləşən qarşılıqlı səfərlərini, o cümlədən Rusiya və Azərbaycan müdafiə nazirləri - Sergey Şoyqu və Zakir Həsənovun qarşılıqlı səfərlərini şərh edən politoloq Fərhad Mehdiyev bildirib. Lakin onun sözlərinə görə, baş verənlərə rəğmən, sözügedən rəsmi səfərlərin həlledici amil olduğunu söyləmək çətindir.**

"Bu ilin aprel ayındakı dördgünlük müharibədən sonra Azərbaycan öz mövqeyini daha ciddi şəkildə ortaya qoydu. Hərbi baxımdan üstünlüyünü də istifadə etmək şərti ilə vəziyyətin dəyişməsinin gərəkliyini ortaya qoydu. Bunu həm Ermənistan, həm də Rusiya tərəfi başa düşür" - politoloq qeyd edib.

**F.Mehdiyev bildirib ki, Dağlıq Qarabağ münaqişəsinin iki yolla - ya müharibə, ya da sülh yolu ilə həlli var.** "Sülh yolu ilə həllin mümkün olması üçün Ermənistan başa düşməlidir ki, onlar bu dəyişikliyə getməlidirlər. Ermənistan cəmiyyətini nəzərdə tuturam, çünki Ermənistan cəmiyyətinin hökumət üzərində ciddi təsiri var. Müharibə yolu ilə həllə gəlincə isə, yenə Rusiya öz mövqeyini dəyişməlidir. İndiki vəziyyət yalnız sülh danışıqları yolu ilə Qarabağ məsələsinin həllini şərtləndirir. Rusiya tərəfi buna artıq hazırdır, lakin Ermənistan tərəfinin buna hazır olduğunu söyləmək çətindir" - ekspert əlavə edib.

*****

Moskvanın sülh təşəbbüsləri, Azərbaycanın Rusiya ilə əlaqələri öz yerində, o da faktdır ki, işğal altındakı Abxaziya və Cənubi Osetiya nəzərə alınmazsa, şimal qonşumuzun Güney Qafqazda yeganə legitim hərbi bazası məhz Ermənistandadır. Yəni Ermənistan bütün mənalarda Rusiyadan asılı olan forpost və marionet ölkə olsa da, Kremlə lazımdır, Rusiya onun narahatlığına qulaq vermək zorundadır. Başqa sözlə, ruslar ermənilərin ətini yesə də, sümüyünü atmazlar.

Bu reallıq Azərbaycanı istər-istəməz daha etibarlı dost-müttəfiqlər axtarmağa, silah ticarətində şaxələnmə siyasətinə üstünlük verməyə vadar edir. Ki, hərbi parkımız, silahlı qüvvələrimiz Rusiya kimi tək dövlətdən - işğalçı Ermənistanın müttəfiqindən ifrat asılı duruma düşməsin.

Qardaş Türkiyə bu mənada Azərbaycan üçün boşluğu uğurla doldura bilər və doldurur da. İki ölkə arasında birgə hərbi təlimlər, son illər uğurla davam etdirilən hərbi əməkdaşlıq, hərbi-texniki sahədə uğurlar buna sübutdur. Sevindiricidir ki, Azərbaycan və Türkiyənin özlərində də hərbi-sənaye kompleksi inkişaf edir. Qardaş ölkə tədricən silah alıcısından silah satıcısına çevrilməkdədir. Alıcı ölkələrdən biri isə Azərbaycandır.




# Təmas xəttində monitorinq insidentsiz başa çatıb

**ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, avqustun 17-də Azərbaycan və Ermənistan dövlət sərhədinin Ağstafa rayonunun Tatlı kəndi sahəsində qoşunların qarşıdurma xəttində keçirilən monitorinq insidentsiz başa çatıb. Bu barədə Müdafiə Nazirliyindən verilən məlumatda deyilir.**

Xatırladaq ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Xristo Xristov və Saymon Tiller, Ermənistan tərəfindən isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi səfir Anjey Kaspşik və onun səhra köməkçiləri Jiri Aberle və Piter Şvedberq keçiriblər.

YENİ MÜSAVAT
N 181 (6502) 18 avqust 2016

# “Mətanət A” şirkətinin adı FETÖ araşdırmalarına qarışıb

## Azərbaycanın tanınmış brendinin Fətullah Gülən şəbəkəsi ilə əlaqələrinin olduğuna dair məlumatlar yayılıb; şirkətin rəhbərliyinin istintaqa çağırıldığı deyilir

**Ötən ayın 15-də Türkiyədə hərbçilərin dövlət çevrilişinə uğursuz cəhdindən sonra qardaş ölkədə genişmiqyaslı əməliyyat-istintaq prosesi başlayıb. Çevriliş cəhdinin arxasında hazırda ABŞ-da yaşayan Fətullah Gülənin dayandığı iddia olunur. Ona görə də Gülən tərəfdarlarına qarşı böyük bir əməliyyat həyata keçirilir. Gülənçilərin Türkiyədə təmsil olunduqları bütün mövqelərdən uzaqlaşdırıldıqları, əksəriyyətinin həbsə atıldığı məlumdur. Hazırda Türkiyədə minlərlə hərbçi, iş adamı, təhsil işçisi, həkim, prokuror, hakim, idmançı, iş adamı və s. Fətullahçı Terror Örgütünün üzvləri kimi və qiyama cəhddə iştirakçı qismində (qısa adı FETÖ) həbsdədir. Bir xeyli şəxs isə həbssiz istintaq altındadır.**

Bu əməliyyat artıq Azərbaycana da gəlib çatıb. Dövlət qurumlarında çalışan FETÖ-çülərin işdən çıxarılması haqda mətbuatda kifayət qədər məlumatlar var. FETÖ araşdırmaları çərçivəsində Azərbaycanda “Zaman” qəzeti, Qafqaz Universiteti, ANS kanalı qapadılıb. Avqustun 17-də məlum olub ki, Qafqaz Universitetində çalışmış, universitet qapadılandan sonra onun bazasının təhvil verildiyi Bakı Ali Neft Məktəbindən 50-yə yaxın Türkiyə vətəndaşı olan müəllim vəzifəsindən azad olunub. Müəllimlərin işdən çıxarılması rəsmi olaraq “müqavilə müddətlərinin bitməsi” ilə izah edilsə də, prosesin FETÖ araşdırmaları çərçivəsində gerçəkləşdirildiyi deyilir.

Bugünlərdə Azərbaycan Baş Prokurorluğu FETÖ-çülərə qarşı cinayət işi başlanması haqda rəsmi məlumat yaydı. Maraqlıdır ki, cinayət işinin başlanması haqda rəsmi məlumatda heç bir ad çəkilmir, hətta hansı maddələrlə cinayət işi başlandığı da məxfi saxlanılır.

“Yeni Müsavat”a daxil olan məlumata görə, adların çəkilməməsi, maddənin açıqlanmaması FETÖ-çülərin Azərbaycandakı qruplaşmasına daxil olanları duyuq salmamağa görədir. Artıq bir neçə şəxsin istintaqa çağırılaraq dindirilməsi haqda məlumatlar var. Prosesin yarımgizli şəkildə aparılması kimlərsə duyuq salıb ölkədən qaçmağa sövq etməməyə hesablanıb. Gələn məlumatlara görə, 10-a yaxın FETÖ tərəfdarının ölkədən çıxışına qadağa qoyulub. Həmin şəxslər ölkə sərhədlərini aşmağa çalışdıqları zaman onlara STOP qoyulduğunu biləcəklər.

Bu proses hər ötən gün genişlənir. Əslində Azərbaycanda FETÖ araşdırmaları 2 il əvvəldən başlayıb.

2014-cü ildə Bakıda FETÖ daha çox “Xidmət Hərəkatı” kimi tanınırdı və ardıcılları hələ o vaxt hədəfə gəlmişdilər. Həmin dövrdə başladılan araşdırmalar çərçivəsində Azərbaycan Prezident Administrasiyasının Siyasi təhlil və informasiya təminatı şöbəsinin müdiri Elnur Aslanov, Prezident yanında Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Fərhad Məmmədov, Dini Komitənin rəhbəri Elşad İskəndərov və başqaları tutduqları vəzifələri itirdilər. Məsələ o dövrdə kimlərinsə qandallanmasına qədər gedib çıxmadı.

Hazırda isə durum fərqlidir. Türkiyədə FETÖ-çülərin hərbçilərin çiyinləri üzərində dövlət çevrilişinə cəhd etməsi ölkənin hüquq-mühafizə orqanlarını onlara qarşı genişmiqyaslı, daha sərt şəkildə addımlar atılması əmrinin verilməsini şərtləndirib.

Türkiyə ilə yanaşı, FETÖ-çülərin sıza bildikləri bütün dövlətlərdə belə araşdırmalar gedir və Azərbaycanda da artıq cinayət işi başlanıb. FETÖ-çülərin ölkəmizdə bir çox sahələrdə özlərinə mövqe tutmaları haqda məlumatlar illərdir ki, dövriyyədədir. İş dünyasında da FETÖ-çülərin olması yeni xəbər deyil.

Azərbaycanın bir neçə iri şirkətinin adı Fətullah Gülən örgütü ilə bu və ya digər şəkildə işbirliyində hallanır. Redaksiyamıza daxil olan məlumata görə, belə şirkətlərdən biri də tikinti sektorunda istehsal etdiyi mal çeşidlərinə görə inhisarçı mövqeyə sahib olan “Mətanət-A” şirkətidir. İstintaqçıların bu şirkətin qapısına dayandıqları da gələn məlumatlar sırasındadır. Türkiyə tərəfindən Azərbaycan tərəfinə bu şirkətlə bağlı araşdırma aparmaq, hətta lazım gələrsə, həbsləri gerçəkləşdirmək xahişinin gəldiyi də bildirilir.

“Mətanət A” şirkətinin adı vaxtaşırı yerli mətbuatda neqativ planda xatırlansa da, şirkət rəsmilərinin “Xidmət Hərəkatı” ilə əlaqələri haqda məlumatlar ilk dəfədir ki, yayılır. Məsələn, 2013-cü il noyabrın 26-da “Yeni Müsavat” qəzetində “”Mətanət A" şirkəti ittihamlara cavab verə bilmədi" sərlövhəli yazı dərc edilib. Həmi yazıda şirkətin prezidenti Elxan Bəşirovla qardaşı olan vitse-prezidenti Fuad Bəşirovun şirkətdə dözülməz mühit yaratdıqlarından söhbət açılır.

Bu yazıdan 2 il əvvəl, 2011-ci ilin oktyabrında “Yeni Müsavat”da “”Mətanət-A" ilə işçisi arasında pul qalmaqalı" sərlövhəli yazıda şirkətin işçisinə əmək haqqını ödəməkdən yayındığı diqqətə çatdırılırdı.

“Mətanət-A” rəhbərlərinin Fətullah Gülən şəbəkəsinə bağlılığı haqda hər hansı bir məlumatlar yox idi. Şirkət rəhbərliyi illərlə özünü Azərbaycanın nüfuzlu generallarından birinin qohumu kimi qələmə verirdi. Gələn məlumatlar onu söyləməyə əsas verir ki, əslində şirkət rəhbərliyinin gücü Türkiyədə şəbəkələşmiş FETÖ-çülərlə əlaqələrə söykənirmiş.

F.Gülən şəbəkəsinin əsas özəlliklərindən biri gizliliyin çox ciddi şəkildə qorunmasıdır. Elə bu gizliliyi təmin etmək üçün “Xidmət Hərəkatı”nın üzvlərinə ifşa olunmamaları üçün istənilən addımı atmaq, yerli hakimiyyətlərin yanında yer almaq, hətta lazım gəlsə, Fətullah Gülən əleyhinə danışmağa, bu topluma məxsus bütün dəyərlərdən imtina etməyə icazə verilir. Təşkilatdan kimsə ifşa olunarsa, “Xidmət Hərəkatı”nın ciddi ziyan görməməsi üçün Pensilvaniyaya bağlı çoxlu sayda şəbəkələr qurulur və onların biri digərindən xəbərsiz olur.

Qeyd edək ki, Türkiyədə dövlət çevrilişinə cəhddə ittiham olunan Fətullah Gülənin tərəfdarlarının Azərbaycanda qanunsuz hərəkətlərinin qarşısının alınması məqsədilə Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

Gununsesi.info-nun əməkdaşı cinayət işində kimlərin adının keçməsi ilə bağlı sualla Baş Prokurorluğun mətbuat xidmətinə müraciət edib. Xidmət rəhbəri Eldar Sultanov iş üzrə barələrində cinayət təqibi başladılan şəxslər haqda məlumat verməyib. E.Sultanov bunu istintaq sirri adlandırıb: **“Əgər məsləhət olsaydı, Cinayət Məcəlləsinin müvafiq maddələrinin adını yazardıq. Deməli, bu, məqsədəuyğun deyil”.**

Siyahıda ictimai əhəmiyyət kəsb edən tanınmışlardan kimlərin adının olmasına gəlincə, E.Sultanov qeyd edib ki, bu, istintaq sirridir: **“Bu haqda məlumatsızam. Əgər kiminsə belə şəxslər haqda məlumatı varsa, onların adlarını deməklə istintaqa yardım etmiş olacaq. Belə şəxslərə hədiyyə də veriləcək”.**

❑ **E.HÜSEYNOV**

# Böyük özəlləşdirmə oliqarxlar üçün fürsətdir

**Xəbər verdiyimiz kimi, ölkədə böyük özəlləşdirmə prosesinə start verilib və bir neçə gün öncə Əmlak Məsələləri Dövlət Komitəsi 65 dövlət əmlakını özəlləşdirməyə çıxarıb. Bu əmlakların 25-i iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən səhmdar cəmiyyətlər, 2-si qeyri-yaşayış sahəsi, 28-i digər dövlət əmlak və obyektləri, 10-u isə nəqliyyat vasitələridir. Özəlləşdirməyə çıxarılan müəssisələr nəqliyyat, xidmət, kənd təsərrüfatı, o cümlədən qida istehsalı, inşaat və ticarət sahəsində fəaliyyət göstərirlər.**

Ekspertlər özəlləşdirmə prosesini dövlət büdcəsinə yeni vəsaitlərin daxil olması və büdcə yükünün azaldılması baxımından müsbət qiymətləndirsələr də, həmin müəssisələrin gələcək taleyi baxımından narahatlıqlarını ifadə ediblər. Məlum olduğu kimi, ölkədə sahibkarların əksəriyyətində kapital çatışmazlıqları var. Belə olduğu halda özəlləşdirilməyə çıxarılan obyektlərin əsas müştəriləri oliqarxlar olacaq. Çünki ölkədə ən çox vəsait məhz onlardadır. Bu isə yenə də oliqarxların varlanmasına və müvafiq sahələrdə onların inhisarçılığının gücləndirilməsinə gətirib çıxara bilər.



**Rəşad Həsənov:** “İstənilən halda, oliqarxlar bu prosesdə iştirak etmək üçün daha böyük üstünlüyə malikdir”



**Qubad İbadoğlu:** “Təhlil göstərir ki, özəlləşdirməyə təqdim olunan bir çox müəssisələr fəaliyyət göstərmir”

**“Yeni Müsavat”a açıqlamasında sözügedən problemləri vurğulayan iqtisadçı ekspert Rəşad Həsənov bildirdi ki, bu mənada hərraclarda xarici investorların iştirakına şərait yaradılmalıdır:** “Azərbaycan iqtisadiyyatında problemli məsələlərdən biri də ciddi kapital çatışmazlığı və məhdud biznes çevrəsinin olmasıdır. Bu kimi hallarda özəlləşdirmələrdə müəyyən qədər arzuolunan şaxələndirməyə gətirib çıxarmaya bilər. Bu da oliqarxların hər hansı formada proseslərdə iştirakçılıq imkanlarını genişləndirir. Çünki onların maliyyə imkanları daha genişdir. Ancaq bir məsələni də nəzərə almaq lazımdır ki, burada daha çox üstünlük veriləcək meqam özəlləşdirmənin şəffaf şəkildə aparılması, hərracların şəffaf keçirilməsi, rəqabətliliyin təmin edilməsi və sair məsələlər olmalıdır. Ümumiyyətlə, böyük özəlləşdirmə ilə bağlı nəzərdə tutulan proqramda xarici investorların iştirakı da təmin edilməlidir. Xarici investorlar prosesə cəlb olunmalıdır. Onlar sonrakı dövrlərdə bu müəssisələrin yeni sistemlə təmin edilməsində, müasir təcrübənin, innovasiyanın ölkəmizə gətirilməsində və müasir bazar prinsiplərinə uyğun idarəetmə modelinin qurulmasında ciddi dəstək ola bilər. Lakin ola bilsin ki, azərbaycansayağı özəlləşdirmə həyata keçirilsin. O zaman burada oliqarxlar öz maraqlarının təmin edilməsi məqsədilə müəyyən üsullara əl ata bilərlər. Növbəti dövrlərdə özəlləşdirmə fəaliyyətinə nəzarət gücləndirilməlidir”.

**R. Həsənovun fikrincə, istənilən halda oliqarxlar bu prosesdə iştirak etmək üçün daha böyük üstünlüyə malikdir, onların imkanlarının məhdudlaşdırılması üçün qanunvericilikdə hər hansı yol yoxdur:** “Amma dediyimiz kimi, proses şəffaf aparılarsa, burada həm özəlləşdirmədə dövlət gəlirlərinin məbləği arta bilər, həm də bu prosesdə külli miqdarda vəsait xərcləyən insanlar da bu vəsaitləri növbəti dövrlərdə geri qaytarmaq üçün daha səmərəli fəaliyyət həyata keçirər”.

**İqtisadçı ekspert Qubad İbadoğlu da facebook sosial şəbəkəsində özəlləşdirmə prosesindəki problemlərdən yazıb. Yeni özəlləşdirmənin köhnə özəllikləri və müəmmalı tərəflərindən bəhs edən iqtisadçı bildirib ki, dövlətin bu prosesdən ciddi maliyyə qazanacağı gözlənilmir:** “İnternetdə özəlləşdirilməyə çıxarılan obyektlərin maliyyə vəziyyətinə baxıb, təqdim olunan statistik məlumatları təhlil edərkən, məlum oldu ki, onların bir çoxunun səhmləri 70 faiz ətrafında və ya ondan çox satılıb, satışa çıxarılan zamanında satılmayan səhmlərdir. Belə ki, özəlləşdirmənin 1-ci sxeminə görə təqdim olunan obyektlərin 70 faizi vaxtilə dövriyyədə olan çeklərlə satılırdı ki, onların da 15 faizini kollektivin almaq hüququ var idi. Hələ o zamanlar mənim tənqid etdiyim bu yanlış sxemin tətbiqindən sonra bir çox səhmdar cəmiyyətlərin səhmlərinin nağd satışa çıxarılan hissəsi- 30 faizi satılmamış qaldı. Elə bu səbəbdən də 1-ci özəlləşdirmə çərçivəsində dövlət büdcəsi ciddi maliyyə qazana bilmədi. Çünki səhm nəzarət paketi başqasının nəzarətində olan müəssisələr adətən yeni investor maraq göstərmir.

Təhlil göstərir ki, özəlləşdirməyə təqdim olunan bir çox müəssisələr fəaliyyət göstərmir və yaxud illərlə dayanandan sonra qismən işlərini bərpa ediblər. Məsələn, “Lənkəran Broyler” Açıq Səhmdar Cəmiyyətinin, çörək məmulatlarının istehsalı və satışı üzrə ixtisaslaşmış “Şəmkir” Açıq Səhmdar Cəmiyyətinin, “Zaqatala Avtonəqliyyat” Açıq Səhmdar Cəmiyyətinin və digərlərinin işçilərinin sayı 1 nəfər göstərilib".

**İqtisadçı onu da qeyd edib ki, həmin müəssisələr arasında zərərlə işləyənlər, kreditor borcu olanlar da kifayət qədərdir:** “Məsələn, ”Mingəçevir Regenerat" Açıq Səhmdar Cəmiyyəti barədə məlumatdan görünür ki, müəssisənin son maliyyə ilinin nəticələrinə görə 299 449 manatdır, eləcə də “Mingəçevir Texniki Rezin” Açıq Səhmdar Cəmiyyətinin kreditor borcları 931 120 manat təşkil edir. Odur ki, səhmlərinin 70 faizinə qədəri satılan (səhm nəzarət paketi 1 nəfərin və qrupun əlində olan), debitor borcları olan zərərlə işləyən və yaxud fəaliyyət göstərməyən belə obyektlərin özəlləşdirməsindən nə isə gözləmək sadəlövhlük olardı. Hesab edirəm ki, belə müəssisələri özəlləşdirməyə çıxarmaqla Əmlak Məsələləri Dövlət Komitəsi çox uğursuz layihəyə imza atıb".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 181 (6502) 18 avqust 2016

# Bakıdakı ən məşhur ziyarətgah bağlanır, yoxsa...

## Nardaran qəsəbəsindəki "Həzrəti Rəhiməxanım ziyarətgahı" dini icması ləğv edilib



**Nardaran qəsəbəsi "Həzrəti Rəhiməxanım ziyarətgahı" icması təsisçilərinin 12 avqust tarixli iclasının qərarına əsasən Ədliyyə Nazirliyi Kollegiyasının icmanın fəaliyyətinə icazə verən 13 oktyabr 1993-cü il qərarı ləğv edilib.**

Bu barədə "Respublika" qəzeti Ədliyyə Nazirliyinə istinadən məlumat yayıb. Bununla da Nardaran qəsəbəsindəki "Həzrəti Rəhiməxanım ziyarətgahı" dini icması ləğv edilib.

Bununla yanaşı, dini icma özünü buraxması ilə bağlı hər hansı məlumat yaymayıb və Ədliyyə Nazirliyinin qərarına münasibət bildirməyib.

Nardaran piri VIII əsrə aiddir. Bu pirdə imam Rzanın bacısı Rəhimə xanımın qəbri yerləşir. O, Harun ər-Rəşid və Məmunun dövründə Azərbaycana pənah gətirən peyğəmbər övladlarından biridir. O, öz ailəsi ilə birgə bu kəndə pənah gətirərək burada yaşayıb və elə burada da dəfn olunub.

"Turan" agentliyi isə yazır ki, Nardaranda fəaliyyət göstərən dini icma avqust ayının 12-də özünü buraxmaq barədə qərar verib. "Amma bu dini icma heç də bəzi internet resurslarında göstərildiyi kimi "Həzrəti Rəhiməxanım ziyarətgahı" dini icması adlanmır. Həmin icma 2003-cü ildə dövlət qeydiyyatından keçib. "Bakı şəhəri Sabunçu rayonu Nardaran kənd dindarları icması" adlanır.

Dini icmanın özünü buraxması heç də təsadüfən baş verməyib. Buna səbəb 2015-ci ilin məlum 26 noyabr "Nardaran hadisələri"dir. Məhz həmin hadisələrdən sonra bu kənddə dini icmaların təşkilinə yenidən baxılmağa başlayıb. Rəsmi qurumlar bu hadisələrdən az sonra Nardaranda yeni dini icma yaradılacağını elan etdi. Amma yeni yaradılacaq dini icma heç də klassik formada olmayacaq. Yəni kənddə hər məscidin müstəqil dini icma şəklində olması nəzərdə tutulmur.

Yeni biçimdə nəzərdə tutulan budur ki, "Rəhiməxanım" ziyarətgahı mərkəz olmaqla, vahid dini icma yaradılır, qalan məscidlərdə dini ayinləri, gündəlik namazları icra etmək üçün nümayəndələr təyin edilir. Hətta bəzi dini ekspertlər "köhnə-yeni" icma anlayışlarına belə nisbi yanaşırlar. Onlar bildirirlər ki, 2003-cü ildə dövlət qeydiyyatından keçmiş dini icmanın keşmiş rəhbərinin adı yeni dini icmada da yer alır. Məlumatlı mənbələr mərkəzi dini icmanın formalaşmağa başladığını, icmanın formalaşmasında Nardaran kənd dindarlarının iştirak etidiyini bildirirlər.

"Dini etiqad azadlığı haqqında" Qanuna edilən 2009-cu il dəyişikliklərində dini icma yaradılması üçün şərtlər sərtləşdirilib. 2009-cu il dəyişiklikləri ilə dini icmanın formalaşması üçün 50 nəfər dindarın toplanması tələb edilir. Odur ki, Nardaranda hər məsciddə dini icma yaradılması üçün 50 nəfər toplamaqdansa, bir dini icmanın yaradılması, dini icma rəhbərinin məscidlərə nümayəndələr təyin etməsi daha məqbul görünür. Ekspertlərə görə belə halda həm idarəçilik, həm də icmaya nəzarət daha asan olur.

Bəzi ekspertlərə görə, bu üsul dini ayinlərin icrasına maneə yaratmayacaq. Dindarlar məscidlərə cəm olduqda mütəvəllinin nümayəndəsi öz dini səlahiyyətlərini icra etməyə başlayacaq.

Bunu da qeyd edək ki, indiki halda Nardaranda yeni dini icmanın formalaşmasına Qafqaz Müsəlmanları İdarəsinin nümayəndəsi (QMİ), QMİ Qazilər Şurasının üzvü, Sabunçu və Pirallahı rayonlarının qazisi Musa Qasımov rəhbərlik edir.

Adətən məscidlərə ya imam, ya da axund təyin edilir. Amma bu dəfə mərkəz "Rəhiməxanım ziyarətgahı" seçilib və buna görə də burada mütəvəlli dini proseslərə rəhbərlik edir.

Yeni formalaşmağa başlayan icmanın tərkibinin 50 nəfər və ya daha çox olacağı hələlik açıq qalır. Açıq qalmayan məsələ vahid dini icmanın yaradılacağı, mütəvəllinin kənd məscidlərinə nümayəndələrini təyin edəcəyidir. Amma icmanın tam şəkildə nə zaman formalaşacağı da bəlli deyil. Çünki formalaşma prosesinin hələ davam etdiyi deyilir".

# Şıx və Sahil çimərliklərində qadağa qərarı



**Avqustun 16-da Xəzər rayonunun Şüvəlan qəsəbəsindəki dəniz çimərliyində Bakı şəhər sakini Vüsal Qədirov və Masallı rayon sakini Amil Əliyev çimərkən boğulublar.**

V.Qədirovun meyiti çıxarılıb, A.Əliyevin meyitinin tapılması üçün tədbirlər görülür.

Qeyd edək ki, rəsmilər çimərliklərdə boğulma halları ilə bağlı mövqe bildirməsələr də, Xəzərdə empidemioloji vəziyyət diqqətdə saxlanılır. **Səhiyyə Nazirliyinin Gigiyena və Epidemiologiya Mərkəzinin (GEM) direktor əvəzi Vaqif Abdullayev** avqustun 17-də mətbuat konfransı keçirib. O, çimərliklərlə bağlı məsələyə də toxunub. "Son 5 il ərzində 35 rayon mərkəzinin su təchizatı və kanalizasiya sistemlərinin layihələrinin ekspertizası aparılıb. 9 rayon mərkəzində isə həmin sistemlərin istismara verilməsinə müsbət rəylər verilib" deyə, V.Abdullayev bildirib. O deyib ki, 52 rayonun 2 683 kəndində 3 647 su mənbəyindən laboratoriya nümunələri götürülüb: "2835 su mənbəyinin vəziyyəti bilavasitə Respublika GEM-in mütəxəssisləri tərəfindən yerində araşdırılıb, 39 rayonda vəziyyət haqqında rayonların icra hakimiyyətlərinə təkliflər verilib, tədbirlər hazırda davam etdirilir. Yaşayış məntəqələri ərazisinin sanitariya qaydalarına, gigiyena və ekoloji normativlərə uyğun olaraq təmizlənməsi, məişət tullantılarının müvəqqəti saxlanması, müntəzəm daşınması və zərərsizləşdirilməsi məsələlərinə nəzarət təmin olunmaqla aşkar olunan çatışmazlıqlar barəsində hər il Bakı Şəhər İcra Hakimiyyətinin müvafiq icraçı qurumlarına təkliflər verilib".

Direktor əvəzi əlavə edib ki, Səbayel rayonunun Şıx və Qaradağ rayonunun Sahil çimərliklərinin sanitariya-mühafizə zolaqlarında dəniz suyunun intensiv çirklənmə hallarının davam etməsini nəzərə alaraq həmin ərazilərdə çimərliklərin istifadəsinin müvəqqəti olaraq qadağan edilməsi barədə Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən qəbul edilən qərar qüvvədə saxlanılıb. Mərkəzin baş direktorunun epidemiologiya məsələləri üzrə müavini Afaq Əliyeva söyləyibki, son 5 il ərzində profilaktik peyvənd təqviminə B tipli hemofil infeksiyaya qarşı, pnevmokok əleyhinə vaksinlərin, bu ilin fevral ayından isə inaktivləşdirilmiş poliomielit vaksininin tətbiq edilməsi Azərbaycanda uşaqların 11 xəstəliyə qarşı peyvənd edilməsini təmin edib. O deyib ki, malyariya əleyhinə aparılan məqsədyönlü kompleks eksepidemik tədbirlər nəticəsində malyariya ilə xəstələnmə səviyyəsi ilbəil azalıb, 2013-cü ildən etibarən yoluxma halları qeydə alınmayıb:

"Azərbaycan ərizisində malyariyanın tam ləğvinə nail olunub".

# DİN falçılara qarşı əməliyyata başlayıb



**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQIDK) müvafiq bölgə şöbələri Daxili İşlər Nazirliyinin (DİN) yerli bölmələri ilə birlikdə Ucar və Şamaxı rayonlarında falçı adı altında fəaliyyət göstərən şəxslərə qarşı yoxlama tədbirləri həyata keçirib.**

Komitədən bildirilib ki, əməliyyatın keçirilməsində əsas məqsəd son günlər KİV-lərdə falçılıq adı altında fəaliyyət göstərən şəxslərlə bağlı məlumatların yer almasıdır.

Yoxlama tədbirləri zamanı falçılıq adı altında fəaliyyət göstərən Ucar rayonu Qaracallı kənd sakini Məlahət Qafarova və Şamaxı rayon sakini Sveta İsmayılova müəyyən edilərək dindirilib. Dindirilmə zamanı hər iki şəxslə mövcud qanunvericilik barəsində söhbət aparılıb, adıçəkilən şəxslərin qanunazidd fəaliyyətləri nəticəsində əldə ediləcək əmlakın inzibati və cinayət məsuliyyət yaradacağı ilə bağlı xəbərdarlıq edilib. Hər iki şəxs yol verdikləri əməldən peşman olduqlarını və bu fəaliyyətlə bir daha məşğul olmayacaqlarını bildiriblər.

Qeyd edək ki, dələduzluq faktı əsasında falçılıq fəaliyyəti ilə məşğul olan və saxtakarlıq edərək əhalinin pulunu mənimsəyən şəxslərə qarşı Azərbaycan Respublikasının İnzibati Xətalar və Cinayət Məcəlləsinə uyğun olaraq respublikanın digər bölgələrində də hüquq-mühafizə orqanları ilə birlikdə bu kimi halların qarşısının alınması üçün tədbirlər davam etdiriləcək.

Vətəndaşların diqqətinə çatdırılır ki, aldadılaraq inamından sui-istifadə olunan, pulu mənimsənilən şəxslər mütləq şəkildə hüquq-mühafizə orqanlarına müraciət etsinlər.

# Tarif Şurasi: "Dərmanların qiymətində bahalaşma yoxdur"



**Dərman vasitələrinin qiymətlərinin bahalaşması faktı yoxdur, dövlət qeydiyyatına alınmış 9850 dərman vasitəsinin qiyməti Tarif (qiymət) Şurası tərəfindən təsdiq edilib və onlardan 7347 dərman vasitəsi (75%-i) hazırda təsdiq edilmiş qiymətlərlə satışdadır. Bu barədə "Trend" ə Tarif (qiymət) Şurasından daxil olan məlumatda deyilir.**

Məlumatda qeyd edilir ki, digər 2503 dərman vasitəsinin (25%-nin) təsdiq edilmiş qiymətləri isə cari ilin 1 sentyabr tarixindən qüvvəyə minəcək. Sentyabrın 1-dən etibarən qiymətləri təsdiq edilməyən dərman vasitələrinin satışı yalnız həmin dərmanların qiymətləri təsdiq olunduqdan sonra həyata keçirilməlidir.

Tarif (qiymət) Şurası tərəfindən qiymətləri təsdiq edilərək qüvvəyə minmiş dərman vasitələrinin qiymətlərində şuranın qərarı olmadan hər hansı bir dəyişiklik, o cümlədən dərman vasitələrinin qiymətlərinin bahalaşması mümkün deyil.

# Qanunsuz yolla dərman gətirənlər yaxalandı



**Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin əməkdaşları külli miqdarda dərman preparatlarının ölkə ərazisinə qanunsuz yolla gətirilməsinə cəhdin qarşısını alıblar. Lent.az-ın Dövlət Gömrük Komitəsinin saytına istinadən məlumatına görə, İstanbul-Bakı aviareysi ilə gələn Azərbaycan vətəndaşının baqajına rentgen aparatı ilə baxış zamanı monitorda dərman preparatlarının təsviri görünüb və baqaja təkrar yoxlama keçirilib.**

Nəticədə vətəndaşın çamadanından əvvəlcədən gömrük orqanına şifahi, elektron və ya yazılı formada bəyan edilməyən xeyli miqdarda dərman preparatları aşkar olunaraq götürülüb.

YENİ MÜSAVAT
N 181 (6502) 18 avqust 2016

# Bakıda və Gəncədə ailə dramı: arvadlarını öldürdülər



**Bakıda kişi qeyri-rəsmi nikah münasibətində yaşadığı qadının itkin düşməsi barədə polisə məlumat verib. "Report"un xəbərinə görə, hadisə paytaxtın Xəzər rayonunun Mərdəkan qəsəbəsində qeydə alınıb.**

Qəsəbə sakini 37 yaşlı Altay Həsənov polisə qeyri-rəsmi nikah münasibətində yaşadığı həyat yoldaşı 34 yaşlı Yasəmən Novruzovanın itkin düşməsi barədə məlumat verib.

Aparılan əməliyyat-axtarış tədbirləri nəticəsində A.Həsənovun Y.Novruzovanı qətlə yetirərək yaşadığı evin həyətində basdırdığı məlum olub.

Meyit ekspertlərin iştirakı ilə basdırıldığı yerdən çıxarılıb.

Faktla bağlı cinayət işi başlanıb, araşdırma aparılır.

Gəncədə də ər arvadını bıçaqlayaraq qətlə yetirib.

APA-nın qərb bürosunun verdiyi məlumata görə, hadisə dünən şəhərin Cavad xan qəsəbəsində qeydə alınıb. Qəsəbə sakini, 1986-cı il təvəllüdlü Məhəbbət Vəliyeva ailə münaqişəsi zəminində əri tərəfindən bıçaqlanıb. Qadın xəstəxanaya çatdırılsa da, onu xilas etmək mümkün olmayıb.

Faktla balı Gəncə Şəhər Prokurorluğunda cinayət işi açılıb, araşdırma gedir.



## Ev sahiblərini yatızdırıb xeyli pul apardılar

**Cəlilabad rayonunda oğurluq hadisəsi baş verib. APA-nın cənub bürosunun məlumatına görə, hadisə gecə saatlarında rayonun Göytəpə şəhəri, Vüqar Mürsəlov küçəsinin sakini Ələsgər Hüseynova məxsus ikimərtəbəli fərdi yaşayış evində qeydə alınıb. Naməlum şəxs və ya şəxslər evin həyətindəki nərdivanı ikinci mərtəbənin pəncərəsinə söykəyərək, oradan otağa daxil olublar. Onlar evdə olan sandığı sökərək içindəki 9 min ABŞ dollarını və 13 min manatı götürüb özləri ilə aparıblar.**

Məlumata görə, oğurluq baş verən zaman ev sahibinin oğlu Anar Hüseynov otaqda yatıbmış.

Ailə üzvləri oğurluğun planlı şəkildə həyata keçirildiyini, qabaqcadan onlara yuxu dərmanı verildiyini və ya qaz buraxıldığını deyiblər.

O da bildirilib ki, oğrular sandıqdakı 6-7 min manat dəyərində olan qızıl-zinət əşyalarına toxunmayıblar.

Faktla bağlı Cəlilabad Rayon Polis Şöbəsinin Göytəpə Polis Bölməsi məlumatlandırılıb. Polis əməkdaşları hadisə yerinə gələrək, istintaq üçün zəruri barmaq izlərini götürüblər.

Hazırda oğruların yaxalanması istiqamətində müvafiq əməliyyat-axtarış tədbirləri görülür.

## Ötən ay Azərbaycandan neçə əcnəbi qovulub?

**Bu ilin iyul ayı ərzində 2792 əcnəbi tərəfindən Azərbaycan Respublikasında olma, habelə müvəqqəti və daimi yaşama qaydalarına əməl etmədən inzibati qanunvericiliyin tələblərinin pozulması halları müəyyən edilib.**

Dövlət Miqrasiya Xidmətindən Lent.az-a verilən məlumata görə, onlardan 13-nün Azərbaycan ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün əsas verən sənədləri itirildiyindən yenisi ilə əvəz olunub, 198 nəfərin ölkə ərazisində yaşamaları leqallaşdırılıb, 1928 əcnəbinin Azərbaycan Respublikası ərazisini 48 saat ərzində tərk etmələri, 653 əcnəbinin isə inzibati qaydada ölkə hüdudlarından kənara çıxarılmaları barədə qərarlar qəbul edilib.

Ümumiyyətlə, ay ərzində Dövlət Miqrasiya Xidmətinə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən ölkədə müvəqqəti olma müddətlərinin uzadılması, müvəqqəti və daimi yaşamaq üçün icazələrin verilməsi, vətəndaşlığa qəbul, xitam, bərpa, eləcə də vətəndaşlıq mənsubiyyətinin və qaçqın statusunun müəyyənləşdirilməsi, həmçinin əmək fəaliyyətinin həyata keçirilməsi üçün iş icazələrinin verilməsi və mövcud iş icazələrinin müddətlərinin uzadılması ilə bağlı 7662 müraciət daxil olub. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq araşdırılıb və müvafiq qərarlar qəbul edilib.

Ötən ay ərzində olduğu yer üzrə qeydiyyatla bağlı 96732 əcnəbinin müraciəti qeydə alınıb.

## Sərnişin avtobusu yandı

**Bakıda hərəkətdə olan sərnişin avtobusunda yanğın baş verib.**

APA-nın məlumatına görə, hadisə Nobel prospektində qeydə alınıb. Zığ şossesi istiqamətində hərəkətdə olan 10 TE 797 dövlət qeydiyyat nişanlı MAN markalı avtobusun təkər hissəsində qəfil alışma baş verib. Qatı tüstü 21 nömrəli marşrut avtobusunun salonuna daxil olduqdan sonra sürücü sərnişinləri avtobusdan düşürüb və baş verən yanğına müdaxilə etməyə çalışıb.

Qeyd edək ki, bu, 21 nömrəli marşrut üzrə hərəkət edən avtobuslarda baş verən ilk yanğın hadisəsi deyil. Analoji hadisə bu ilin fevralında "Xətai" metro stansiyası qarşısında baş verib. O zaman da hərəkətdə olan MAN markalı sərnişin avtobusunun təkər hissəsi yanıb. Yanğının ilkin ekspertizası ilə bağlı verilən rəydə qeyd olunub ki, sözügedən avtobus texniki yoxlanışdan keçməyib və nasaz şəkildə idarə olunub.

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



YENİ MÜSAVAT
N 181 (6502) 18 avqust 2016

# Azərbaycanı innovasiya indeksinə görə Mozambikdən geri qoyan səbəblər...

## **Osman Gündüz:** "Dövlət qurumları innovativ texnologiyaları dəstəkləmək üçün böyük həcmli qrantlar ayırmalıdırlar"

**Azərbaycan patent alınması üçün ölkənin 1 milyon sakininə hesablanan müraciətlərin sayına görə reytinq sıralamasında dünya ölkələri arasında 85-ci yeri tutub. Bu göstərici ilə ölkəmiz Ermənistan, Gürcüstan kimi qonşu dövlətlərdən, hətta Mərakeş, Mozambik, Keniya kimi Afrika dövlətlərindən də geridə qalıb. Qeyd edək ki, BMT-nin Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (WIPO) tərəfindən hər il Qlobal İnnovasiya İndeksi dərc edilir. Bu indeks üzrə ölkələrin reytinqi, patent alınması üçün ölkənin 1 milyon sakininə hesablanan müraciətlərin sayına görə müəyyən edilir. Reytinqdə yüksək yerlər tutan ölkələr üçün innovasiyalı iqtisadiyyata zəmin olan yaxşı infrastruktur, eləcə də insan kapitalına investisiya yatırmaq istəyi xarakterikdir. 2016-cı ilin nəticələrinə görə, bu reytinqdə birinci yeri keçən il olduğu kimi yenə İsveçrə tutur.**

Onun ardınca isə İsveç, Böyük Britaniya, ABŞ, Finlandiya və Sinqapur gəlir. İnnovasiya reytinqi siyahısında ümumilikdə 128 ölkənin reytinqi dərc edilib. Estoniya 24-cü yeri tutmaqla, keçmiş sovet ölkələri arasında ən yaxşı nəticəyə malikdir.

Qonşularımızdan Türkiyə 42, Rusiya 43, İran isə 78-ci yerdə qərarlaşıb. Cənubi Qafqaz ölkələri arasında ilk yeri 60-cı pillədə Ermənistan tutur. Gürcüstan 64, Azərbaycan isə 85-ci yerdədir. Azərbaycan reytinq cədvəlində nəinki qonşu ölkələrdən, hətta Mozambik, Keniya, Ruanda, Mərakeş kimi Afrika ölkələrindən də geri qalır.





**Ölkəmizin innovativ texnologiyalarla bağlı əqli mülkiyyət inkişaf göstəriciləri üzrə geri qalmasının səbəblərinə gəlincə, Azərbaycan İnternet Forumunun rəhbəri Osman Gündüz "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, qonşu ölkələrlə müqayisədə Azərbaycanın bu qədər geridə qalması arzuolunmaz bir haldır**: "İT sahəsində əqli mülkiyyətlə bağlı müraciətlər, hansısa layihələrin, innovasiyaların ortaya çıxmasını özündə əks etdirir. Gərək bu istiqamətdə gəlişmələr olsun ki, müraciətlər də edilsin. Azərbaycanda son dövrlərdə İT sahəsində Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında İnformasiya Texnologiyalarının İnkişafına Dəstək Fondu yaradıldı və mən də o fondun müşahidə şurasının üzvüyəm. İndi bizim özümüz də bu işlərdən razı deyilik. Düşünürəm ki, bu, beynəlxalq təşkilatların da hesabatlarında öz əksini tapıb və müəyyən dərəcədə reallığı əks etdirir. Bizdə bu sahədə görüləcək işlər daha çoxdur. Müəyyən addımlar atılsa da, nəticə ürəkaçan deyil. Hələ ki İT sahəsində hər hansı böyük layihələr, dünya miqyasında tanınan yeniliklər edə bilməmişik".

**O.Gündüz qeyd etdi ki, istər elm sahəsində, istərsə də biznes sahəsində hələlik qlobal miqyasda tanınan, əqli mülkiyyət təşkilatlarında qeydiyyatdan keçən layihələrin sayı elə də çox deyil:** "Çıxış yolu odur ki, hökumət bu sahəyə daha ciddi dəstək göstərməlidir. Son dövrlərdə prezident də öz çıxışlarında bildirib ki, artıq neft erası bitib, resurslara arxalanmaq dövrü başa çatıb, investisiyalar qeyri-neft sektoruna yatırılmalıdır. Qeyri-neft sektoru da əsasən informasiya texnologiyaları sahəsidir. Birincisi, hökumətin bu sahəyə diqqəti artmalıdır, buraya investisiyalar qoyulmalıdır. Bizdə mühit belədir ki, bizim sahibkarlar daha çox biznesə, ticarətə, mağazaya, pərakəndə satışa investisiya qoymağa meyllidir, nəinki İT sahəsinə. Ona görə də bu sahəyə diqqəti çəkmək lazımdır. Dövlət qurumları innovativ texnologiyaları dəstəkləmək üçün böyük həcmli qrantlar ayırmalıdırlar. İnformasiya Texnologiyalarının İnkişafına Dəstək Fondunun verdiyi qrantlar cüzidir, 10-15 min manatdır. Bu məbləğ artırılmalıdır".

**Ekspertin fikrincə, paralel olaraq təhsil sistemində ciddi islahatlar olmalıdır, bünövrədən başlamaq lazımdır:** "Hazıra təhsildə təmayülləşmə gedir, bu yaxşı bir haldır. Lakin kompüter, riyaziyyat üzrə olan istiqamətdə informatikanı ləğv ediblər. Əlbəttə, o zaman həmin şagirdlərdən innovativ yeniliklər gözləməyə dəyməz. Yəni bu kompleks bir işdir, bütün sahələri əhatə edir. Bu açıqlanan reytinqlər də göstərir ki, biz bu sahədə işlərimizi canlandırmalıyıq".

❑ **Nərgiz LİFTİYEVA**

# Şəmkirdə 20 kvadrat sahəsi olan qədim şəhər tapılıb

## **Tarixçi:** "Bu ərazilərdə çıxarılan abidələrin Azərbaycana məxsus olduğunu ortaya qoymaq lazımdır"

**Şəmkir rayonunun Qaracəmirli kəndi yaxınlığında 5 ildən bəri davam edən və Azərbaycan, Almaniya və Gürcüstan arxeoloqlarının birgə əməkdaşlığı sayəsində aparılan tədqiqatlar nəticəsində şəhər tipli böyük yaşayış yeri aşkarlanıb.**

Milli Elmlər Akademiyasının saytının yaydığı məlumatda bildirilir ki, Beynəlxalq Azərbaycan-Almaniya arxeoloji ekspedisiyası bu ərazidə 2500 il əvvəl mövcud olmuş şəhər tipli böyük yaşayış yerində 2006-cı ildən arxeoloji qazıntı aparır.



Ekspedisiyanın qənaətinə görə, arxeoloji qazıntılar nəticəsində aşkar edilən qədim şəhərdə, saraylar və digər tikililər bir-birindən xeyli aralı olmaqla, parkların, bağların arasında yerləşməklə divarlarla əhatələnib. Böyük tikililərdə geniş sütunlu zalların, uzun dəhlizlərin olduğu qeyd edilir. Bu yaşayış yerindəki abidə eramızdan əvvəl 550-ci ildən 330-cu ilə qədər, 220 il mövcud olub və Əhmənilər imperiyasına məxsus Pasarqad, Persopol tikililəri ilə müqayisə olunur. Qaracəmirli kəndi yaxınlığında yerləşən yaşayış yeri Əhmənilər imperiyasının bütün Cənubi Qafqazı idarə edən inzibati mərkəzi olduğu güman edilir.

**Ekspedisiyanın rəhbəri, AMEA-nın müxbir üzvü İlyas Babayev bildirib ki, bu vaxta qədər burada 28 sütun altlığı tapılıb:** "Görünür, burada 100-dən çox sütun altlığı var. Sarayın 8 metr enində 25 metr uzunluğunda giriş hissəsi olub, onun arxasında 675 kvadratmetrdə audensiya zalı yerləşir, ətrafında isə dəhlizlər və böyük zallar var. Burada tapılan maddi mədəniyyət nümunələri azdı, ancaq elitardı. Gil qablar çox azdı. Halbuki saray olmasaydı, gil qablar çoxluq təşkil edərdi. Ən maraqlısı isə burada mixi yazıların olmasıdır."

Məlumata görə, hazırda ekspedisiya saraya aid edilən 5-ci sahə adlanan ərazinin qazıntısını aparır. Beynəlxalq ekspedisiyanın tərkibində almaniyalı arxeoloqla yanaşı, milliyyətcə yapon olan, Ankara Universitetinin magistrantı Masumi Uehara da iştirak edir. Masumi Uehara bildirib ki, 10 gün davam edən qazıntılarda kərpic tikililər və onun bərabərində zibil çökəklikləri aşkarlanıb, keramika və küp parçaları, daş alətlər tapılıb.

Saray və onun divarla əhatələnmiş hissəsinin ərazisi 20 hektar olduğu bildirilir. Hələlik bu sarayın yalnız giriş zalı və özünün bir hissəsi qazılıb. Sarayın e.ə. V əsrin birinci yarısında, 2480 il bundan əvvəl tikildiyi güman edilir.

**Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan tarixçi Dilavər Əzimli bildirib ki, adətən bu kimi məsələlərə bir qədər fərqli yanaşırlar:** "Həmin dövrü Əhmənilərə, daha sonra Sasanilərə aid edirlər. Məlum olduğu kimi, eramızın IV əsrində Əhmənilərı Sasanilər əvəz etdilər. Lakin unudurlar ki, Azərbaycan nominal şəkildə həmin imperiyalara daxil olmuşdu. Əslində bu ərazilərdə nəzarət Atropatenaya məxsus idi. Yəni bütün Azərbaycanın güney və quzey ərazilərinə nəzarəti Atropatenada həyata keçirirdilər. Bunu sübut edən Azərbaycanda Dərbənd şəhərindəki qala divarlar üzərində atropatların adının yazılmasıdır. Sovet Tarixşünaslığında da hətta Qazax ərazisində tapılan sütunları da Sasanilər dövrünə aid edirlər. Guya onlar da Sasanilər dövrünün tikililəridir. Əslində həmin dövrdə söhbət Atropatenadan gedə bilər. Nominal tabelik odur ki, müstəqilliyi 99 faiz əldə saxlayırsan. Yəni buranın iqtisadi, siyasi proseslərinin Azərbaycan tərəfindən həyata keçirilməsidir. Məhz həmin dövrdə Azərbaycan demək olar ki, bütöv halda, lakin sülalələr tərəfindən idarə olunurdu. Bir tərəfdən Atropatena, digər tərəfdən isə Albaniya sülalələri tərəfindən idarə olunurdu".

**Tarixçi bildirib ki, tapılan abidələrə sırf Azərbaycan baxımından yanaşmaq lazımdır:** "Bu ərazilərdə çıxarılan həmin abidələrin Azərbaycana məxsus olduğunu ortaya qoymaq lazımdır. Azərbaycanın vaxtı ilə quzey ərazilərinə də atropatlar nəzarət ediblər. Bu baxımdan bütöv halda Azərbaycana yanaşmaq lazımdır. İndi bu abidələrə də qeyd etdiyim kimi bu aspektdən baxmaq lazımdır".

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
Son səhifə
N 181 (6502) 18 avqust 2016

# Bu qidalar xərçəngdən qoruyur

Araşdırmalar nəticəsində məlum olub ki, xərçənglə müalicədə təsirli olan tərəvəz və bitkilər bunlardır:

**Qara üzüm** - çəyirdəyini atmadan bol-bol istifadə edin. Çünki qabığında, tumunda vesibretrol deyilən xüsusi bir maddə var. Bu maddə , bədəni birbaşa xərçəngə qarşı qoruyur.

**Pomidor** - tərkibindəki likopen və selenium prostat, döş, yoğun bağırsaq və mədə xərçənginə qarşı təsirlidir.

**Kökün** tərkibində olan betakarotinlər, ümumiyyətlə, qırmızı tərəvəz və meyvələrdə olan bir maddədir. Betakarotinlər DNT ziyanına mane olaraq, xərçəngə qarşı bədənin müqavimətini artırır və immun sistemini xəbərdar edir.



**Göbələklər** də xərçəngdən qorunmaq üçün təsirlidir. Xərçəng xəstələrinin müalicəsi əsnasında göbələk ekstraktlarından istifadə təklif edilir. Maitake göbələyi döş xərçəngi, beyin şişləri, dəri xərçəngi və qaraciyər xərçəngində təsirli olur. Şitaake göbələyindən isə ginekoloji şişlər, prostat xərçəngi və ya şikayətlərində istifadə edilməsi təklif edilir.

**Zəncəfil:** xərçəng müalicəsi əsnasında ürəkbulanma olarsa, ondan istifadə edə bilərsiniz.



# Cib telefonu insanı niyə kökəldir?

**Aparılan araşdırmaya görə, cib telefonları beyindəki doyma hissini yox edərək şişmanlığa səbəb olur. Belə ki, Türkiyənin Qazi Universiteti Tibb Fakültəsi araşdırmaçıları müəyyənləşdiriblər ki, cib telefonlarındakı elektromaqnit saha beynin yemək yeyərkən doyma hissini verən MSH adlı hormonda azalmaya səbəb olur.**

Buna görə də cib telefonunun yaydığı şüalara müəyyən müddət məruz qalanda, yemək yeyərkən "'doyma"' duyğusu normaldan daha gec yaranır. Toxluq hissinin gecikməsi sayəsində isə fasiləsiz yemək ehtiyacı şişmanlığa səbəb olur.

Təcrübə öncə heyvanlar üzərində aparılıb. Heyvanların aclıq-toxluq hormonlarından ortaya çıxan dəyişikliklər onların çəkisinə təsir edib. Təcrübə zamanı heyvanların bir qrupuna bir ay boyunca 1800 MHz, ikinci qrupa bir ay boyunca 2100 MHz, üçüncü qrupa isə iki ay ərzində 2100 MHz radiofrekans tətbiq edilib. Nəticədə daha çox şüaya məruz qalan heyvanlarda doyma hissi azalıb. Doyma hissi azaldığı üçün isə onlarda fasiləsiz yemək ehtiyacı özünü göstərib. İş nəticələri elm dünyasına ilk dəfə təqdim olunub və bu, beynəlxalq jurnallarda nəşr olunacaq.

# İnsanın ürəyi dayansa da... beyni 3 dəqiqə işləyir

**Son vaxtlar elmi araşdırmalar ürəyi dayanan insanın ilk 3 dəqiqədə şüurunun açıq olduğunu müəyyənləşdirib. Southampton Universiteti alimlərinin gəldiyi nəticəyə görə, bu, 2 mindən artıq insan üzərində aparılan araşdırmadan sonra təsdiqlənib. Sözügedən araşdırmaya qədər alimlər insanın bütün beyin fəaliyyətinin ürək bədənə qan dövranını kəsdikdən 30 saniyə sonra dayandığına inanırdı. Amma Southampton Universitetində aparılan araşdırma bu nəticəyə qarşı çıxır. Elm dünyasında yeni cığır açan bu araşdırmanı həyata keçirən heyətə rəhbərlik etmiş doktor Sam Parnia yazıb ki, düşünülənlərin əksinə olaraq, ölüm bəlli bir anda meydana gəlməz. Ciddi bir xəstəlik, ya da qəza nəticəsində ürək, ciyərlər və beyin öz funksiyasını itirməyə başlayır. Tibbi müdaxilələr sayəsində bu proses tərsinə çevrilə, ani bir şəkildə ürəyi dayanan bir insan xilas edilə bilər. Bu cəhdlər işə yaramadığı zaman isə ölüm meydana gəlir. Aralarında Avstraliya, ABŞ və İngiltərədən xəstələrin də olduğu, keçmişdə ürəyi dayanaraq həyatda qala bilmiş 2060 adamla aparılan söhbətlər nəticəsində məlum olub ki, xəstələrin 40 faizi ölü olduqları klinik olaraq açıqlandıqdan sonra beyin funksiyalarının davam etməsi ilə bağlı bəzi şeylər xatırlayırlar.**





# İflic gəlin toy günü yeridi

**8 ildir iflic olan Jaque Qoncer toyunda bir anda ayağa durub yeriməklə hər kəsi şoka salıb. Salondakılar və həyat yoldaşı göz yaşlarını saxlaya bilməyiblər. Boynundan aşağısı iflic olan Jaque 17 yaşında ikən başına dəyən bir zərbə nəticəsində iflic olub. Həkimlər böyük ehtimalla onun bir daha yeriyə bilməyəcəyini deyiblər. Qəzadan 6 ay sonra bir möcüzəni gerçəkləşdirən Jaque ayaq üstə dayanmağa başlamışdı. Ancaq 8 il boyunca əl arabasına məhkum idi. Toyundan 1 il öncə o, toy mərasimi zamanı ayaq üstə duracağına və hətta keşişə doğru yeriyəcəyinə qərar verib. Öncə toy salonuna anası və atası ilə yanaşı girən gəlin sonra bir anda ayağa durub və yeriməyə başlayıb.**




QOÇ - Ayın sonuna qədər nəzərdə tutduğunuz işləri reallaşdırmaq istəyirsinizsə, bu təqvimdən səmərəli şəkildə yararlanın. Gün ərzində mühüm şəxslərlə sövdələşmələr aparın.

BUĞA - Səhhətinizdə passivlik hökm sürdüyündən dincəlməyiniz daha məqsədəuyğundur. Ağır fiziki işlərdən, səfərə çıxmaqdan yayınıın. Axşamsa sevdiyiniz adamlarla təmiz havada gəzinməyə çalışın.

ƏKİZLƏR - Şəxsi büdcənizdə artım olacağı gözlənilir. Deməli, ev şəraitində az olmağınız lazım gələcək. Sizə ehtiyac duyanları sevindirməyə çalışın. Texniki avadanlıqlarla ehtiyatlı olun.

XƏRÇƏNG - Bürcünüzdəki planetar quruluş maddi dirçəlişdən xəbər verir. Ola bilsin ki, sizə borclu olanlarla rastlaşasınız. Saat 19-21 arası xoş bir təsadüflə rastlaşma ehtimalınız da var.

ŞİR - Nəhayət ki, qarşınızda duran bu tarixi ürəyiniz istəyən tərzdə keçirə biləcəksiniz. Ətrafınızda baş verən bütün olaylar ruh yüksəkliyinizə səbəb olacaq. Qazanmaq ehtimalınız da var.

QIZ - Müəyyən gərginlik müşahidə olunsa da, özünüzü ələ almaqla gözlənilən neqativliyi dəf edə bilərsiniz. Yaxşı olar ki, bu təqvimdə işlə bağlı heç bir danışıq və sövdələşmədə iştirak etməyəsiniz.

TƏRƏZİ - Darıxdırıcı məqamlarınız artıq arxada qalmaqdadır. Ruh düşkünlüyünə son qoyun. Çünki ulduzlar bu gündən başlayaraq taleyinizə müsbət məqamlar paylayacaq. Axşam maraqlı görüşləriniz mümkündür.

ƏQRƏB - Hiss olunur ki, qarşıdakı həftə üçün böyük bir sınaq meydanına çəkiləcəksiniz. Elə isə bəri başdan buna hazır olun. Dualar oxuyun, ziyarət edin və Tanrının varlığını başınız üstündə hiss edin.

OXATAN - Yaxşı olar ki, saat 16-ya qədər vaxtınızı ev şəraitində keçirəsiniz. Əks təqdirdə əsəbi situasiyalarla üzləşəcəksiniz. Sonrakı müddətdə isə maraqlı adamlarla rastlaşacaqsınız.

OĞLAQ - Qarşınızda əlamətdar bir təqvim durur. Vaxtınızın əsas hissəsini əyləncə və qonaqlıqlara həsr etməklə səmərəli anlar yaşaya bilərsiniz. İmkan daxilində səfərə də çıxmaq olar.

SUTÖKƏN - İşgüzar sövdələşmələr, pulla bağlı danışıqlar üçün münasib gün olmadığından bu kimi məsələləri təxirə salın. İndi sizə hər şeydən əvvəl orqanizminizi, xüsusən də əsəblərinizi qorumaq lazımdır.

BALIQLAR - Ailə-sevgi münasibətlərində uğurlarınız gözlənilir. Bütün umu-küsüləri bir kənara atın. Taleyinizdə dönüş yarandığı indiki məqamda yalnız əzmkarlığınızı artırmalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Cütlüklər ev işlərini paylaşırsa... daha çox boşanır



Evliliklərdə "həyat ortaqdır" devizinin yalan olduğu ortaya çıxıb. Norveçdə aparılan araşdırmaya görə, ev işlərini paylaşan cütlüklərin boşanma faizi ev işini tək görən qadınla müqayisədə 50 faiz artıqdır. Araşdırma komandasından olan Tomas Hansen deyib ki, cütlüklər ev işlərini paylaşdıqları zaman aralarında mübahisə və anlaşılmazlıq daha çox çıxır: "Düzü, bu nəticə bizim üçün də gözlənilməz oldu. Amma bu, onu göstərdi ki, qadınla kişi arasında yeganə problem ev işləri, ailə qayğılarının ağırlığı deyil".

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Nazim SABİROĞLU
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 4.750